

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı



№ 03 - mart 2019



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 03 - mart 2019**

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




**Qaynar xətt**
**539-76-75**

# Mündəricat



## RƏSMİ MƏLUMAT


VII Qlobal Bakı Forumu ....................4
Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki ....................6
Dövlət başçısının növbəti humanist addımı ....................9
8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ....................11




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Rusiyanın ölkəmizdəki səfiri ilə görüş ....................12
Gənclər ədliyyə orqanlarına qulluğa qəbul olunublar ....................12
Ədliyyə naziri İmişlidə vətəndaşları qəbul edib ....................14
8 mart - Qadınlar günü ədliyyə orqanlarında qeyd olunub ....................15
Ədliyyə fəaliyyətinə dair brifinq keçirilib ....................16
31 mart - azərbaycanlıların soyqırımı qurbanlarının xatirəsi yad edilib ....................18
Ədliyyə Akademiyasının məlumatları ....................19
Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının ümumi yığıncağı keçirilib ....................22
Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir ....................24
Bələdiyyələrlə iş mərkəzində GİZ nümayəndələri ilə görüş ....................24
Bələdiyyələrin hüquqi maarifləndirilməsi üzrə ardıcıl tədbirlər görülür ....................25
Ədliyyə işçiləri internat evlərinin sakinlərini sevindiriblər ....................26
Azərbaycan dilində "Məhkəmə ekspertizası" adlı ilk dərslik nəşr olunub ....................26

## HÜQUQ NƏZƏRİYYƏSİ

Zülfiyyə Yaqubova. Vətəndaş qəbulunun psixoloji aspektləri ........ 28

## YENİ QANUNLAR, FƏRMANLAR...

"15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral 1467-VQD nömrəli Qanunu ........ 31

"Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral 1469-VQD nömrəli Qanunu ........ 31

"Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral 1470-VQD nömrəli Qanunu ........ 32

"Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də və 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 591 nömrəli Fərmanı ........ 33

"Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ........ 34

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1, 92.10.3 və 244.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ........ 41

"Qanunçuluq" jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb
səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1832 Tiraj:1100 ədəd




# VII Qlobal Bakı Forumu

**Martın 14-16-da Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Dünyanın 55 ölkəsindən 500-dən çox nümayəndənin, o cümlədən hazırda fəaliyyətdə olan 5 prezidentin, 1 baş nazirin, 2 baş nazirin müavininin, 42 sabiq dövlət başçısı və baş nazirlərin, çoxsaylı analitiklərin, jurnalistlərin, gənc liderlərin toplaşdığı "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən Forumda 10 müxtəlif sessiya keçirilib.

Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu", "Davamlı inkişaf çağırışları", "Təhlükəsizlik naminə orta Şərq əməkdaşlığı", "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu" və digər beynəlxalq əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Yeddinci Qlobal Bakı Forumunun açılışında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin dünyada sabitliyin olmadığı bir vaxtda planetimizi narahat edən mühüm məsələləri müzakirə etmək imkanı baxımından Bakı Forumunun çox vacib tədbir olduğunu bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev açılışda nitq söyləyib. Forumun dünyada cərəyan edən vacib prosesləri müzakirə etmək üçün mühüm beynəlxalq platformaya çevrildiyini vurğulayan dövlətimizin başçısı Azərbaycanın xarici siyasətindən danışıb. Bildirib ki, bu, proqnozlaşdırıla bilən, müstəqil və milli maraqlara əsaslanan, tərəfdaşlıq, qarşılıqlı əməkdaşlıq, regionda sabitliyə yönələn siyasətdir.

Regional təhlükəsizlikdən söhbət açarkən Prezident

İlham Əliyev Ermənistanla Azərbaycan arasındakı münaqişədən və onun nəticələrindən danışıb, bir milyondan çox qaçqın və məcburi köçkünün bu gün də bu işğaldan əziyyət çəkdiyini, xalqımıza qarşı etnik təmizləmə aparıldığını, tarixi abidələrimizin dağıdıldığını xatırladıb. Diqqətə çatdırıb ki, Azərbaycan torpaqlarının işğalı beynəlxalq hüququn, əsas beynəlxalq təşkilatların müvafiq qətnamələrinin və qərarlarının kobud şəkildə pozulmasıdır.

Ölkə Prezidenti beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıqdan bəhs edib və diqqəti ölkəmizin təşəbbüsü ilə yaradılan və artıq on ildir ki, mövcud olan Bakı prosesinə yönəldib. Dünyada sabitliyin bərqərar olunması üçün mühüm amil olan multikulturalizmin Azərbaycandakı ənənələrindən söz açan dövlətimizin başçısı ölkəmizin beynəlxalq təhlükəsizliyə töhfəsini qeyd edib, nəqliyyat və enerji layihələrimizdən danışıb, forumun işinə uğurlar arzulayıb.

Sonra Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani bu mötəbər Foruma dəvət olunduğuna görə Azərbaycan dövlətinin başçısı İlham Əliyevə minnətdarlığını bildirib. Qeyd edib ki, bu gün dünyada mühüm dəyişikliklər baş verməkdədir, təhlükəsizlik, ətraf mühit və digər problemlər öz həllini tapmalıdır, dünyada yeni xarici siyasət müəyyənləşdirilməlidir, dövlətlər və xalqlar arasında əməkdaşlıq genişləndirilməlidir.

Albaniya Prezidenti İlir Meta Forumun yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. Diqqətə çatdırıb ki, dünya çox mühüm dəyişikliklərlə üzləşib. Xüsusilə Avropada təhlükəsizlik baxımından yaşanan çətinliklərə toxunan Albaniya Prezidenti həmin çətinliklərin ölkələrin birgə səyləri nəticəsində aradan qaldırılmasının mümkünlüyünü vurğulayıb. İlir Meta Azərbaycan ilə əməkdaşlığın ölkəsi üçün faydalarından da danışıb.

Sonra Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Şefik Caferoviç çıxış edərək dünyada baş verən qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklərin aradan qaldırılması yollarının müzakirəsi baxımından Qlobal Bakı Forumunun əhəmiyyətini vurğulayıb.

Moldova Prezidenti İqor Dodon çıxışında bildirib ki, dünyada yeni çağırışlar, yeni risklər artmaqdadır. İstər qlobal, istərsə də regional səviyyələrdə təhlükəsizliyi təmin etmək üçün ölkələrin birgə səylərinə və əməkdaşlığına ehtiyac var.



Monteneqro Prezidenti Milo Cukanoviç Azərbaycan xüsusilə son illər ərzində çox vacib beynəlxalq forumlar təşkil etdiyini və bununla qlobal və regional sabitliyə öz töhfəsini verdiyini qeyd edib. Bildirib ki, Monteneqro da Azərbaycanın dost ölkəsidir.

Monteneqro Prezidenti ölkələrin siyasətinin multikultural olmasının əhəmiyyətinə nəzər salıb, hər bir ölkədə sabitliyin və əmin-amanlığın təmin edilməsinin vacibliyini vurğulayıb.

Bolqarıstanın Baş naziri Boyko Borisov dünyada hökm sürən münaqişələrdən danışaraq diqqətə çatdırıb ki, münaqişə edən ölkələrin əldə olunan razılaşmalara, imzalanan sənədlərə riayət etmələri vacibdir. Ölkəsinin qonşularla dostluq münasibətlərindən danışan Boyko Borisov Azərbaycan ilə əməkdaşlığa xüsusi önəm verdiklərini bildirib.

Daha sonra İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari Prezident Sercio Mattarellanın, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri xanım Karol Krofts Birləşmiş Krallığın Baş naziri Tereza Meyin, BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Eqqer BMT-nin Baş katibi Antonio Quterreşin Forum iştirakçılarına müraciətlərini oxuyublar.

Sonra Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çıxış edib, Nizami Gəncəvi Beynəlxalq Mükafatının 2019-cu ilin təqdimat mərasimi keçirilib. Mükafat beynəlxalq sülhə verdiyi töhfəyə görə Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə, İnsan Hüquqları Fondunun insan hüquqlarına, gənc liderlərin təhsilinə, həssas uşaqlara hörmətlə yanaşmasına görə Fondun prezidenti Kerri Kennediyə verilib.

# Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki

Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz bayramı xalqımızın sevimli bayramıdır. Əsrlər boyu Azərbaycan xalqı Novruz bayramını qeyd edir. Bu bayramı biz yaxşı nəticələrlə qarşılayırıq. Azərbaycan uğurla və hərtərəfli inkişaf edir. Qarşıda duran bütün vəzifələr icra edilir. Azərbaycan dövləti dərin milli-mənəvi köklər üzərində qurulubdur. Novruz bayramı bizim milli sərvətimizdir.

Keçən Novruz bayramından ötən dövr ərzində bir çox önəmli hadisələr baş vermişdir. Aprel ayında prezident seçkiləri keçirilmişdir və Azərbaycan xalqı yenidən mənə böyük etimad göstərmişdir, böyük dəstək göstərmişdir. Bu dəstəyə və inama görə doğma xalqıma minnətdaram. Mən bu dəstəyi son illər ərzində görülmüş işlərə verilən qiymət kimi qəbul edirəm, eyni zamanda, prezident seçkiləri ərəfəsində elan edilmiş islahatların yeni mərhələsinə göstərilən dəstək kimi qəbul edirəm. Prezident seçkilərindən sonra genişmiqyaslı islahatlar aparılmağa başlanmışdır. Bu islahatların nəticələrini Azərbaycan xalqı artıq görür və bundan sonra da görəcəkdir.

Novruz bayramından iki ay sonra ölkəmizin həyatında çox önəmli hadisə baş vermişdir. May ayında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Bu, tarixi layihədir. Bu layihənin icrası ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcək, bizim siyasi və iqtisadi maraqlarımızı qoruyacaq. May ayında digər böyük layihə istifadəyə verildi, biz Ələt Beynəlxalq Dəniz Ticarət Limanının açılışını qeyd etdik. Bu limanın və 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun fəaliyyətə başlaması Azərbaycanı Avrasiya məkanında önəmli beynəlxalq nəqliyyat mərkəzinə çevirib. Biz bu gün uğurla Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəaliyyətinə



təkan veririk. Azərbaycan hər iki layihədə uğurla fəaliyyət göstərir. Deyə bilərəm ki, bu layihələrdə 10-dan çox ölkə iştirak edir, ancaq yalnız bir ölkə - Azərbaycan həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizlərində fəal iştirak edir və bir çox təşəbbüslərin müəllifi olmuşdur.

İyun ayında digər tarixi hadisə baş vermişdir - TANAP qaz kəmərinin açılışı mərasimi keçirilmişdir. Bu layihənin həyata keçirilməsi bütövlükdə Cənub Qaz Dəhlizinin fəaliyyətə başlaması üçün əsas şərtdir. Biz bu tarixi hadisəni uğurla qeyd etdik və bu gün Azərbaycan qazının əlavə həcmi TANAP xətti ilə dünya bazarlarına nəql edilir.

Biz keçən il üçüncü peyki orbitə buraxdıq və bir daha göstərdik ki, texnoloji baxımdan Azərbaycan çox uğurla, sürətlə inkişaf edir. Kosmik sənayenin inkişafı bizim prioritetlərimizdən biridir.

Keçən il biz regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrasını təmin etdik. Proqram artıqlaması ilə icra edildi və üç proqramın icrası böyük dəyişikliklərə gətirib çıxardı. Biz demək olar ki, bütün infrastruktur layihələrimizi yenidən qurduq. Azərbaycan infrastruktur baxımından çox sürətlə inkişaf edir. Təkcə onu demək kifayətdir ki, biz üç proqram çərçivəsində elektrik enerjisini ixrac etməyə başlamışıq, ölkə daxilində təminat tam təşkil edilir. Baxmayaraq ki, əvvəlki illərdə biz idxaldan asılı idik. Biz qazlaşdırmanı 95 faizə çatdırmışıq və bu, dünya miqyasında ən böyük, ən yüksək göstəricilərdən biridir. Şəhərlərimizin əksəriyyətinə təmiz içməli su xətləri çəkildi və bu proses davam etdirilir. On beş min kilometr yeni yol çəkildi və Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə yol infrastrukturunun səviyyəsi, keyfiyyəti baxımından Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Sosial infrastruktur obyektləri inşa olundu, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikildi və ya yenidən quruldu. İki milyondan çox yeni iş yeri yaradılmışdır. Əhali isə 1,6 milyon artmışdır.

Bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Azərbaycan bu gün bir çox ölkələrlə çox səmərəli, işgüzar, ikitərəfli münasibətlər qurub. Bir çox hallarda Azərbaycan çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarıdır. Qonşu dövlətlərlə əlaqələrimiz yeni mərhələyə qədəm qoyub. Hər bir ölkə üçün qonşularla münasibətlərin inkişafı xüsusi əhəmiyyət daşıyır. Çox şadam ki, biz

qonşu ölkələrlə səmərəli, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik. Müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın bu sahədəki fəaliyyətini yüksək qiymətləndirir. İslam həmrəyliyinə verdiyimiz töhfə bütün müsəlman aləmində yüksək qiymətləndirilir.

Keçən ilin yay aylarında Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədi paraflandı. Bu, çox önəmli sənəddir. Xüsusilə nəzərə alsaq ki, orada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi paraqraflar var, xüsusi fikirlər əks olunub. Bu, əlbəttə ki, çox önəmli məsələdir, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bunun çox böyük əhəmiyyəti var.

Münaqişənin həllinə gəldikdə, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim tarixi diyarımızdır və münaqişənin tezliklə həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında olmalıdır. Bilirsiniz ki, Ermənistan tərəfi danışıqlar formatının dəyişdirilməsi ilə bağlı məsələlər qaldırıb. Ancaq təbii ki, Azərbaycan bunu qəbul edə bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədr ölkələrinin səfirləri - Amerika, Fransa, Rusiyanın nümayəndələri ciddi bəyanat verərək bildirdilər ki, format dəyişməz olaraq qalmalıdır. Həmçinin Avropa İttifaqının yüksək vəzifəli şəxsləri oxşar bəyanatla çıxış etmişlər. Yəni, bu, Ermənistana birmənalı ciddi siqnaldır, eyni zamanda, onu göstərir ki, Azərbaycanın mövqeyi daha da böyük dəstək qazanır.

Münaqişənin həlli regionda sülhün, sabitliyin təmin olunmasına gətirib çıxaracaq. Əlbəttə, Azərbaycan çalışır və çalışacaq ki, bu məsələ tezliklə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın.

Biz bununla bərabər, əlbəttə ki, öz hərbi gücümüzü artırırıq. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya nümayiş etdirib. Bu il və bundan sonrakı illərdə biz ordu quruculuğu üçün nə lazımsa onu da edəcəyik. Bizim hərbi hissələrimizin demək olar ki, mütləq əksəriyyəti yenidən qurulub. Azərbaycan Ordusu ən müasir texnika ilə təchiz edilir və döyüş qabiliyyətimiz gündən-günə artır. Bu gün Novruz bayramını, o cümlədən Cocuq Mərcanlıda qeyd edirlər. Cocuq Mərcanlının qurulması, bərpası, yenidən oraya həyatın qayıtması bizim tarixi nailiyyətimizdir. Cocuq Mərcanlı bu gün Azərbaycan xalqının əyilməz ruhunun təzahürüdür.

Bildiyiniz kimi, bu gün Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub. İslahatlar hərtərəflidir. İqtisadi islahatlar bizə imkan verir ki, əlavə gəlirlər əldə edilsin və büdcə gəlirlərimiz artıb. Bu ilin yanvar-fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıbdır. Bu, bizə imkan verir ki, həmin vəsaiti sosial layihələrə yönəldək. Qeyd etdiyim kimi, ciddi islahatlar üzərində işlər keçən il prezident seçkilərindən sonra başlamışdır. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi vəziyyətini, maliyyə vəziyyətini yaxşılaşdırmış olur. Bildiyiniz kimi, minimum əməkhaqqı və minimum pensiya təxminin 40 faiz artmışdır. Sosial müavinətlər təqribən orta hesabla iki dəfə artmışdır. Köçkünlərə verilən müavinət 50 faiz artmışdır. Tələbələrin təqaüdləri, şəhid ailələrinə verilən müavinətlər, digər sosial ödənişlər artıb. Çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı müvafiq Fərman imzalanıb. Problemli kreditlərin həlli ilə bağlı çox ciddi Fərman imzalanıb. Onu deyə bilərəm ki, bu Fərmanın dünyada bənzəri yoxdur və bu Fərman 800 min insanı əhatə edir. Yəni, Azərbaycan dövləti bir daha göstərir ki, öz vətəndaşının yanındadır.

Bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapacaqdır. İqtisadi artım isə göz qabağındadır. Bu ilin iki ayında ümumi daxili məhsul 3 faiz artmışdır. Bu, son illər ərzində ən yüksək göstəricidir. Sənaye istehsalı 4,6 faiz artmışdır. Bu da yaxşı göstəricidir. Ancaq ən böyük artım qeyri-neft sektorunda sənaye istehsalına aiddir. Burada artım 15,5 faizdir. Hesab edirəm ki, bu, dünya rekordudur və son illər ərzində aparılan düşünülmüş ciddi iqtisadi islahatlar siyasətinin nəticəsidir.

İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir.

Mən tam əminəm ki, bu ili biz uğurla başa vuracağıq. Bundan sonra Azərbaycan yalnız və yalnız inkişaf və tərəqqi yolu ilə gedəcək, vətəndaşların sosial vəziyyəti ildən-ilə yaxşılaşacaq.

Əziz həmvətənlər, sizi bu gözəl Bahar bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun.

# Dövlət başçısının növbəti humanist addımı

## Prezident İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb






**Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş humanizm siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən davam və inkişaf etdirilərək əfv və amnistiya institutları daha çevik və işlək mexanizmə çevrilib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da Ulu Öndərin mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış edərək amnistiya təşəbbüsləri ilə çıxışlar edib.**

Ümumilikdə, 1995-ci ildən bu günədək Azərbaycanda əfvlə bağlı fərman və sərəncamlar imzalanaraq 8 minə yaxın, qəbul olunmuş amnistiya aktları ilə isə 30 minə yaxın şəxs azadlığa buraxılıb.

Dövlət başçısının humanist siyasətinin təzahürü olaraq 2017-ci il fevralın 10-da imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı insan haqlarının, o cümlədən azadlıq hüququnun qorunmasına xidmət etməklə, ötən dövrdə bu mühüm sənədin icrası çərçivəsində cinayət qanunvericiliyinin dekriminallaşdırılması minlərlə şəxsin müxtəlif cəzalardan azad olmasına səbəb olub, həmçinin azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqi genişləndirilib.

Humanizm siyasətinə daim sadiq qalan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb.

Sayca 65-ci olan Əfv Sərəncamı ümumilikdə 431













nəfər məhkuma şamil olunub. Onlardan 399 nəfər azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsindən azad edilib, həmçinin 1 nəfər ömürlük azadlıqdan məhrum edilmiş məhkumun cəzası 25 il, 2 nəfər ömürlük azadlıqdan məhrum edilmiş məhkumun cəzası isə 20 il müddətinə azadlıqdan məhrumetmə ilə əvəz olunub.

Eyni zamanda, azadlıqdan məhrum etmə cəzasının çəkilməsi təxirə salınan 1 nəfər, azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 11 nəfər cəzadan azad edilib, 1 nəfər azadlığın məhdudlaşdırılması, 3 nəfər islah işləri, 1 nəfər ictimai işlər cəzasının çəkilməmiş hissəsindən, 12 nəfər cərimə cəzasından azad olunub.

Bu humanist aktın Ədliyyə Nazirliyi tərəfindən təxirəsalınmadan dərhal icrası təmin edilib.

Martın 17-də Ədliyyə Nazirliyinin, Penitensiar xidmətin, Ombudsman institutunun rəhbər və məsul şəxslərinin, millət vəkillərinin, Əfv Komissiyası üzvlərinin, ictimaiyyət nümayəndələrinin və çoxsaylı KİV-lərin iştirakı ilə əfv Sərəncamının əhatə dairəsində olan məhkumların saxlanıldığı cəzaçəkmə müəssisələrində bu humanist aktın mahiyyəti və əhəmiyyəti barədə məhkumlar qarşısında çıxışlar edilib, izahat işləri aparılıb.

Əfvin icrası müəssisələrdə məhkumların ailə üzvlərinin və yaxınlarının iştirakı ilə mütəşəkkil və təntənəli şəraitdə həyata keçirilib.

Əfv Sərəncamı tətbiq edilmiş şəxslərə azad olunma haqqında müvafiq arayışlar təqdim olunub, onlara yardımlar göstərilib, əvvəlki daimi yaşayış yerləri üzrə aidiyyəti dövlət orqanlarına rəsmi məlumatlar göndərilib. Əfv olunan 13 xarici ölkə vətəndaşının isə Dövlət Miqrasiya Xidmətinə

təhvil verilməsi təmin olunub.

Eyni zamanda nazirliyin probasiya qurumunun qeydiyyatında olan azadlığın məhdudlaşdırılması cəzasına məhkum olunmuş bir nəfər Əfv Sərənjamına əsasən cəzasının çəkilməmiş hissəsindən azad olunması ilə əlaqədar quruma dərhal dəvət edilib və Prezidentin Sərəncamı həmin şəxsə elan olunaraq ona tətbiq olunmuş elektron nəzarət vasitələri açılaraq götürüb.

Bütövlükdə Əfv Sərəncamı ilə azad olunmuş məhkumlar, yaxınları və qohumları bu humanist aktı imzalayan ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

İctimaiyyət tərəfindən böyük maraqla və rəğbətlə qarşılanmış Azərbaycan Prezidentinin bu əfv sərəncamı da respublikamızın humanizm prinsipləri əsasında inkişaf yolu seçdiyini bir daha nümayiş etdirir, xalqın dövlətə, haqqa və ədalətə inamını daha da artırır.

# 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

Hörmətli xanımlar!

Sizi - bütün Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Milli varlığımızın ifadəsi olan zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti vardır. Tariximizin mürəkkəb sosial-siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə onlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilmişlər. XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olmuşdur. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı məhz mənəviyyatında milliliklə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atmışdır.

Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq son yüz ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərmiş və nailiyyətlərlə dolu parlaq bir yol keçmişlər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsi və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynamış, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsi olub, müasir həyatımızın ən əlamətdar hadisələrindəndir.

Əminəm ki, siz Azərbaycan xanımları ailə dəyərlərimizin bundan sonra da layiqincə yaşadılmasına çalışacaq, gənc nəslin Vətənə, torpağa məhəbbət, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək, ölkəmizin davamlı yüksəlişi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 mart 2019-cu il*

# Rusiyanın ölkəmizdəki səfiri ilə görüş

**Martın 11-də ədliyyə naziri Fikrət Məmmədov Rusiya Federasiyasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ilə görüşüb.**



Azərbaycan və Rusiya arasında sıx dostluq və əməkdaşlıq münasibətlərinin olduğunu bildirən nazir bu əlaqələrin inkişafında dövlət başçılarımızın xüsusi rolunu vurğulayıb, zəngin müqavilə bazasına söykənən əlaqələrin hüquqi sahədə də uğurla inkişaf etdiyini qeyd edib.

Görüşdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üzrə görülən işlər, tətbiq olunan innovasiyalar barədə məlumat verilərək təcrübə mübadiləsi məqsədilə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin və birgə keçirilən tədbirlərin əhəmiyyəti qeyd olunub, iki ölkənin ədliyyə qurumları arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulanıb.

Ölkələrimiz arasında hər zaman yaxşı münasibətlərin olduğunu bildirən səfir bu əlaqələrin Rusiya və Azərbaycan prezidentlərinin iradəsi ilə yüksək səviyyəyə qalxdığını vurğulayıb, iki ölkənin ədliyyə orqanlarının da səmərəli əməkdaşlığı barədə məlumatlı olduğunu qeyd edib. Səfirliklə işgüzar münasibətlərdən məmnunluğunu ifadə edən qonaq fəaliyyəti dövründə Azərbaycan ilə bütün sahələrdə, o cümlədən hüquqi əlaqələri daha da möhkəmləndirmək istiqamətində səylərini əsirgəməyəcəyini söyləyib.

Söhbət zamanı maraq doğuran bir sıra məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub.

# Gənclər ədliyyə orqanlarına qulluğa qəbul olunublar

**Ölkəmizdə təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir, gənclərin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə və faydalı məşğulluğunun təmin olunmasına daim xüsusi diqqət yetirilir.**

Ədliyyə orqanlarının da yeni nəsil gənc kadrlarla, o cümlədən bilik və bacarıqları ilə seçilən, fəaliyyətlərində mənəvi və etik dəyərləri yüksək tutan işçilərlə möhkəmləndirilməsi məqsədilə qulluğa qəbul üzrə davamlı açıq müsabiqə və müsahibələr keçirilir. Son 5 ildə şəffaf seçimlər əsasında 2000-dən çox gənc qulluğa qəbul olunub. Hazırda ədliyyə sistemində çalışan işçilərin təxminən 40 faizini gənclər təşkil edir.

Qulluğa qəbulla bağlı növbəti müsabiqədə uğur qazanaraq peşə fəaliyyətinə buraxılmış əksəriyyəti gənclər olan daha 80-ə yaxın hüquqşünasla yeni təyinatla əlaqədar martın 6-da ədliyyə naziri Fikrət Məmmədovun görüşü keçirilib.










Gənclər əvvəlcə Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, əziz xatirəsini ehtiramla yad ediblər. Sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi anılıb, məzarları önünə tər çiçəklər qoyulub. Onlar həmçinin, ulu öndər Heydər Əliyevin nazirliyin binasında büstü önünə gül dəstələri düzüblər.

Nazirlikdə keçirilmiş tədbirdə ədliyyə naziri çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı tərəqqisini vurğulayıb, əhalinin bütün təbəqələrinin rifahının yüksəldilməsinə yönələn tədbirlərdən, dövlətimizin gənclərin hərtərəfli inkişafına qayğısından bəhs edib. Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında dövlət başçısının gənc nəslin peşəkar olması, milli və vətənpərvərlik ruhunda tərbiyə alması, xalqa və dövlətə bağlılığı, müstəqilliyimizin möhkəmləndirilməsi ilə bağlı tövsiyələrini bir daha gənclərin diqqətinə çatdırıb.

Məhkəmə-hüquq islahatlarından ətraflı söhbət açan nazir ədliyyə idarəçiliyində gənclərin yaxından iştirakına hər cür şərait yaradıldığını bildirib, gənclərimizdə bu sahədə işləməyə həvəsin artması, onların məşğulluğunun təmin olunması məqsədilə könüllülük institutunun geniş təşviq olunaraq son bir ildə 1200-ə yaxın könüllünün fəaliyyətə cəlb edildiyini qeyd edib, hazırda qulluğa qəbul edilən bir qrup gənclərin də əvvəllər könüllü kimi nazirliyin müxtəlif qurumlarında fəaliyyət göstərdiklərini vurğulayıb.

Bildirilib ki, könüllülərlə işin dövlət başçısının tapşırığına uyğun daha mütəşəkkil qaydada həyata keçirilməsi üçün hazırda onlara bilavasitə nazirliyə müraciət etmək imkanı yaradılıb, ədliyyə orqanları və könüllülər arasında münasibətləri tənzimləyən nümunəvi müqavilə forması hazırlanıb və son bir ayda 630-dan çox könüllü ilə müqavilə bağlanılaraq onlar ədliyyə fəaliyyətinə cəlb olunublar.

Sonda nazir dövlət başçısının vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi ilə bağlı tələblərini diqqətə çatdırıb, korrupsiya hallarının yolveril-

məzliyini, etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyini vurğulayıb, dövlətçiliyə hər zaman sadiq olmaları, bilik və bacarıqlarını daim inkişaf etdirərək vəzifələrini layiqincə yerinə yetirmələri barədə tapşırıqlar verib, uğurlu fəaliyyət arzulayıb.

Görüşdə bildirilib ki, ötən ilin sonunda nazirlik tərəfindən elan olunmuş yeni müsabiqədə iştirak etmək üçün müraciət etmiş 350-dək hüquqşünasla yaxın zamanda test imtahanı keçiriləcək.

Çıxış edən gənclər ölkə başçısının ətrafında sıx birləşərək müstəqil Azərbaycanımızın hərtərəfli tərəqqisinə və qüdrətlənməsinə sədaqətlə xidmət edəcəklərini vurğulayıb, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına, vəzifələrini vicdanla yerinə yetirəcəklərinə, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Daha sonra təyinat almış yeni əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər, onlara xidməti vəsiqələr verilib.

# Ədliyyə naziri İmişlidə vətəndaşları qəbul edib

**Ölkə Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**



Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin yerlərdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq martın 7-də ədliyyə naziri Fikrət Məmmədov İmişli regional ədliyyə idarəsində İmişli, Sabirabad, Saatlı və digər rayonlardan olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri yerli ədliyyə orqanlarının və məhkəmənin işi, o cümlədən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, habelə Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi İmişli "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Nazir müşavirədə ədliyyə fəaliyyətinin dövlət başçısının tələbləri səviyyəsində təkmilləşdirilməsi, o cümlədən innovativ metodlar tətbiq edilməklə səmərəli təşkili, könüllülük institutunun ədliyyə sahəsində daha geniş təşviqi, habelə vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış

qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tapşırıq və tövsiyələr verib.

Eyni zamanda dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci il dekabrın 28-də qəbul edilmiş Mülki Prosessual Məcəllədə və "Məhkəmələr və hakimlər haqqında" Qanunda mühüm dəyişikliklər barədə yeni qanunların məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə, işin səmərəliliyinin və keyfiyyətinin artırılmasına, iş yükünün azaldılmasına, "elektron məhkəmə" sistemi geniş tətbiq olunmaqla işlərə daha operativ və şəffaf baxılmasına xidmət etdiyi qeyd olunub, qanunvericiliyin yeni müddəalarının dərindən öyrənilməsinin və düzgün tətbiqinin zəruriliyi bildirilib.

# 8 mart - Qadınlar günü ədliyyə orqanlarında qeyd olunub





**Ədliyyə Nazirliyində 8 mart - Qadınlar günü münasibətilə tədbir keçirilib.**

Çıxış edən ədliyyə nazirinin müavini Toğrul Musayev əlamətdar gün münasibətilə nazirliyin rəhbərliyi adından qadın əməkdaşları təbrik edib, onlara cansağlığı, xoşbəxtlik və ailə səadəti arzulayıb.

Nazir müavini ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş dövlət qadın siyasətinin möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsini vurğulayıb, qadınların ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən dövlət idarəçiliyində fəal iştirakını qeyd edib.

Bildirilib ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ölkəmizin hərtərəfli tərəqqisinə dəstək olan mühüm fəaliyyəti, çoxsaylı sosial layihələrin reallaşdırılmasında xidmətləri, nəcib, xeyirxah əməlləri hər kəsə örnəkdir.

Yığıncaqda ədliyyə sistemində qadınların sayının ilbəil artması, o cümlədən rəhbər vəzifələrdə geniş təmsil olunması qeyd olunaraq bu ərəfədə qulluğa qəbul olunmuş hüquqşünasların 42 faizinin məhz qadınlar təşkil etdiyi bildirilib.

Həmçinin, ədliyyə orqanlarında qadınların səmərəli fəaliyyəti, Azərbaycan ədliyyəsinin inkişafında dəyərli töhfələri qeyd olunub, hədiyyələr təqdim edilib.

Bayram münasibətilə nazirliyin struktur qurumlarında da tədbirlər keçirilib.

# Ədliyyə fəaliyyətinə dair brifinq keçirilib





**Ədliyyə Nazirliyinin və Mətbuat Şurasının ədliyyə və məhkəmə fəaliyyəti barədə ictimaiyyətin daha geniş məlumatlandırılması və əhalinin hüquqi biliklərinin artırılması ilə bağlı birgə layihəsinə start verilərək media nümayəndələrinin iştirakı ilə nazirliyin ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə silsilə tədbirlər, mətbuat konfransları və brifinqlər keçirilir.**

Martın 6-da nazirliyin icra, probasiya, istintaq və cəzaların icrasına nəzarət üzrə müfəttişliyin fəaliyyətinə və yeniliklərə həsr olunmuş brifinq keçirilib.

Tədbirdə Ədliyyə Nazirliyinin aidiyyəti qurumlarının və Mətbuat Şurasının rəhbərliyi və əməkdaşları, ədliyyə naziri yanında İctimai Komitənin üzvləri, çoxsaylı kütləvi informasiya vasitələrinin rəhbərləri, jurnalistlər iştirak ediblər.

Tədbirin açılışında Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini Aynur Sabitova və Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli çıxış edərək bildiriblər ki, brifinqin keçirilməsində məqsəd Ədliyyə Nazirliyi ilə media orqanları arasında əməkdaşlıq əlaqələrini genişləndirmək, onların nazirliyin maarifləndirmə işlərində, ədliyyə fəaliyyəti barədə əhalinin mütəmadi və daha geniş şəkildə məlumatlandırılmasında iştirakını yaxından təmin etməkdir.

Eyni zamanda, Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri, vəzifələri, bu sahədə həyata keçirilən islahatlar və yeniliklər barədə məlumat verilib, nazirliyin fəaliyyətinin hər zaman şəffaflıq və aşkarlıq prinsipləri əsasında qurulduğu, kütləvi informasiya vasitələri ilə əməkdaşlığa xüsusi önəm verildiyi vurğulanıb. Bildirilib ki, belə tədbirlər mütəmadi xarakter daşımaqla nazirliyin bütün fəaliyyət istiqamətlərini əhatə edəcəkdir.

Sonra İcra baş idarəsinin rəisi - baş icra məmuru Nurəddin Mustafayev, Probasiya xidmətinin rəisi - baş probasiya məmuru Akşin Ziyadov, İstintaq idarəsinin rəisi Zakir Qafarov və Cəzaların icrasına nəzarət üzrə Müfəttişliyin rəisi Malik Ələkbərov çıxış edərək bu sahələrdə fəaliyyətin təşkili, həyata keçirilən tədbirlər və müvafiq statistik göstəriciləri diqqətə çatdırıblar.

Bildirilib ki, Ədliyyə Nazirliyinin mühüm fəaliyyət istiqamətlərindən olan məhkəmə qərarlarının icrası sahəsində də iş həcmi ilbəil artıb. 2018-ci ildə 900 minə yaxın icra işi olub, onlardan 60.5 faizinin icrası təmin edilib. Həmçinin, görülən tədbirlər nəticəsində hüquqi və fiziki şəxslərə 1.1 milyard manatdan çox vəsait ödətdirilib.

Eyni zamanda, icra qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi, "elektron icra" sisteminin tətbiqi bu






sahədə işin daha səmərəli təşkilinə xidmət etdiyi vurğulanıb, habelə hazırlanmaqda olan icra sahəsində vahid normativ hüquqi aktın - "Azərbaycan Respublikasının İcra Məcəlləsi" layihəsi barədə məlumat verilib.

Brifinqdə dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə yaradılmış nazirliyin Probasiya xidmətinin fəaliyyəti barədə məlumat verilib, qısa müddətdə bu sahədə işin müasir tələblər səviyyəsində səmərəli təşkili ilə bağlı xeyli işlərin görüldüyü, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqinə başlanıldığı, bu məqsədlə Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş, məhkumları fasiləsiz izləməyə və operativ əlaqə qurmağa imkan verən Elektron monitorinq mərkəzinin yaradıldığı bildirilib, hazırda azadlıqdan məhrumetməyə alternativ cəzalara, o cümlədən azadlığın məhdudlaşdırılması cəza növünə məhkum olunmuş 900-dən çox şəxsə elektron qolbaq tətbiq edildiyi vurğulanıb.

Həmçinin xidmətin ictimai işlər növündə cəzanın icrası sahəsində fəaliyyətindən bəhs olunub, ötən il məhkəmənin qərarlarına əsasən 1.030 şəxsin ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrasına cəlb edildiyi bildirilib. Qeyd olunub ki, bu cəzanın formal icrasının qarşısının alınması ilə bağlı əməli işlər görülüb, o cümlədən cəzanın icrasına effektiv və asan nəzarətin həyata keçirilməsində müasir texnologiyaların tətbiqi üzrə tədbirlər görülür.

Eyni zamanda, nazirliyin cəzaların icrasına nəzarətin həyata keçirilməsində, ədalət mühakiməsi əleyhinə və bir sıra digər cinayətlər üzrə ibtidai istintaqın aparılmasında fəaliyyətindən bəhs olunub.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Mətbuat Şurasının idarə heyətinin üzvü Azər Həsrət, "Teleqraf holdinq"in rəhbəri Aynur Camalqızı, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev və digər çıxış edənlər bildiriblər ki, bu cür tədbirlər dövlət qurumları ilə əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir. Ədliyyə Nazirliyi ilə Mətbuat Şurasının təşkil etdiyi görüş KİV-lə nazirlik arasında əməkdaşlığın genişləndirilməsi, habelə bu sahədə görülmüş işlər barədə ictimaiyyətin dolğun məlumatlandırılması baxımından vacib əhəmiyyət kəsb edir.

Brifinqdə sual-cavab sessiyası keçirilib, iştirakçılar arasında fikir mübadiləsi aparılıb, media ilə əlaqələrin əhəmiyyəti, qarşılıqlı fəaliyyətin zəruriliyi və əməkdaşlığın prioritet istiqamətləri müzakirə olunub, jurnalistlərin sualları cavablandırılıb.

Tədbirin sonunda KİV nümayəndələri Probasiya xidmətinin Elektron monitorinq mərkəzinin fasiləsiz fəaliyyəti, elektron qolbağın imkanları və tətbiqi xüsusiyyətləri ilə əyani tanış olublar.

# 31 mart - azərbaycanlıların soyqırımı qurbanlarının xatirəsi yad edilib

**Təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı həyata keçirdiyi 31 mart - azərbaycanlıların soyqırımı bəşər tarixinin ən qanlı səhifələrindən biridir.**



Quba Soyqırımı Memorial Kompleksi



1918-ci il mart soyqırımının nəticələri

Xalqımızın qan yaddaşında əbədi yaşayan bu hadisələrin ildönümü ilə əlaqədar ədliyyə orqanlarında anma mərasimləri keçirilib.

Yığıncaqlarda soyqırımı qurbanları bir dəqiqəlik sükutla yad edilib, onların əziz xatirəsi böyük ehtiramla anılıb.

Məlumat verilib ki, 1918-ci ilin mart-aprel aylarında erməni quldur dəstələri tərəfindən Azərbaycan xalqına qarşı törətdikləri kütləvi qırğın zamanı on minlərlə dinc, silahsız soydaşımız, o cümlədən uşaqlar, qadınlar və qocalar etnik mənsubiyyətlərinə görə amansızcasına qətlə yetirilib, öz doğma torpaqlarından didərgin salınıb, onlarla şəhər və kənd yandırılaraq yerlə-yeksan olunub, milli-mədəni abidələr, tikililər dağıdılaraq məhv edilib. Vaxtilə həmin dövrdə yaradılmış Fövqəladə İstintaq Komissiyası tərəfindən soyqırımın araşdırılması ilə bağlı görülən işlərin, toplanılmış istintaq materiallarının tarixi həqiqətlərin aşkara çıxarılmasında böyük rol oynadığı vurğulanıb.

Bu dəhşətli faciəyə yalnız müstəqillik dövründə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymət verilib, Ulu Öndərin 1998-ci ildə imzaladığı Fərmanla martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan olunaraq hər il soyqırım qurbanlarının xatirəsi ölkəmizdə və onun hüdudlarından kənarda anılır.

Anma mərasimlərində möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bu qətliamın və azərbaycanlılara qarşı ermənilər tərəfindən tarix boyu aparılan etnik təmizləmə siyasətinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü addımların atıldığı, Qubada aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə yaradılmış "Soyqırımı Memorial Kompleksi"nin

ermənilərin təcavüzkar siyasətinin və soyqırımı hadisələrinin ifşa olunmasına, faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət etdiyi vurğulanıb.

Bildirilib ki, ötən il soyqırımının 100-cü ildönümü ilə bağlı dövlət başçısı tərəfindən Sərəncam imzalanaraq, çoxsaylı tədbirlər keçirilib, o cümlədən Quba Soyqırımı Memorial Kompleksinə yürüş, respublika elmi konfransı, foto və kitab sərgisi təşkil olunub.

Tədbirlərdə bu kütləvi qırğının öz miqyasına və qəddarlığına görə bəşəriyyət və insanlıq əleyhinə ən dəhşətli cinayətlərdən olduğu bildirilərək soyqırımı həyata keçirənlərin layiqli cəzalarını alacaqlarına əminlik ifadə olunub.

Azərbaycanlıların soyqırımı ilə bağlı, həmçinin filmlər, elektron məlumat lövhəsində sənədlərdən və foto materiallardan ibarət slaydlar nümayiş etdirilib.

# Ədliyyə Akademiyasının məlumatları

## ◆ Ukrayna Milli Hakimlər Məktəbi ilə birgə video-konfrans





**Ölkə Prezidenti İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqları çərçivəsində hakimlərin və digər hüquqşünasların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilir, Ədliyyə Akademiyasında müxtəlif aktual mövzularda davamlı tədris tədbirləri, o cümlədən distant treninq formaları tətbiq olunmaqla video-konfrans vasitəsilə təlimlər təşkil olunur. Bu sahədə həmçinin bir çox dövlətlərlə faydalı əməkdaşlıq edilərək təcrübə mübadiləsi aparılır.**

"Ədliyyə Akademiyası ilə Ukrayna Hakimlərinin Milli Məktəbi arasında əməkdaşlıq" haqqında Memorandumun implementasiyası çərçivəsində Ədliyyə Akademiyasında "Məhkəmə psixologiyasının aktual məsələləri" mövzusunda video-konfrans vasitəsilə təlim keçirilib.

Hakimlərin, məhkəmə aparatı işçilərinin, nazirliyin və Akademiyanın əməkdaşlarının, habelə tədris prosesinə cəlb olunan psixoloqların iştirak etdiyi tədbirdə Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov və Ukrayna Hakimləri Milli Məktəbinin rektoru Nikolay Onişuk açılış nitqi ilə çıxış edib, səmərəli əməkdaşlıqda keçirilən distant təlimin yaxşı təcrübələrin öyrənilməsi, təlim materiallarının daha çevik çatdırılması baxımından əhəmiyyətini qeyd edib, müasir dövrdə məhkəmə psixologiyasına dair məsələlərin aktuallığını vurğulayıblar.

Video-konfransda Ukrayna Hakimlərinin Milli Məktəbinin və Azərbaycan Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin aidiyyəti mütəxəssislərinin hakimlərin psixoloji hazırlığı, onların emosional tükənmə məsələləri, məhkəmə prosesi iştirakçıları ilə ünsiyyətin psixoloji

xüsusiyyətləri mövzusunda mühazirələri dinlənilib, maraqlı diskussiyalar keçirilərək fikir mübadiləsi aparılıb, dinləyiciləri maraqlandıran suallara aydınlıq gətirilib.

Tədbir iştirakçıları bu cür aktual mövzulara dair distant təlimlərin təşkilinin onların bilik və bacarıqlarının artırılmasında səmərəsini qeyd ediblər.

## "Korrupsiyaya qarşı mübarizə" mövzusunda təlim

**Martın 4-5-də Ədliyyə Akademiyasında probasiya və icra xidmətlərinin əməkdaşları üçün "Korrupsiyaya qarşı mübarizə" mövzusunda təlim keçirilib.**

Ümumilikdə 40 nəfər dinləyicinin iştirak etdiyi təlimdə "Korrupsiyaya qarşı mübarizə və antikorrupsiya mədəniyyəti", "Ədliyyə orqanları işçilərinin etik davranış Qaydalarının tələbləri və bu Qaydaların pozulmasına görə məsuliyyət", "Korrupsiyaya qarşı mübarizə və ədliyyə işçisinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması" mövzuları üzrə mühazirələr iştirakçıların diqqətinə çatdırılıb.

Təlim proqramında nəzərdə tutulmuş mövzular Ədliyyə Akademiyasının müvafiq əməkdaşları tərəfindən tədris olunub.

## Probasiya ilə bağlı maarifləndirici tədbirlər



**Ədliyyə Nazirliyi tərəfindən əhalinin hüquqi maarifləndirilməsi, ədliyyə və məhkəmə fəaliyyəti barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması daim diqqətdə saxlanılaraq həyata keçirilən islahatlar və yeniliklər geniş işıqlandırılır, nazirliyin fəaliyyət istiqamətləri, vəzifələri barədə kütləvi informasiya vasitələrinin iştirakı ilə brifinqlər, seminar-müşavirələr, digər maarifləndirici tədbirlər təşkil olunur.**

Martın 11-də Ədliyyə Akademiyasında Mətbuat Şurası ilə birgə "Probasiya xidmətinin yaradılması, qarşıda duran vəzifələr" mövzusunda seminar keçirilib.

Seminarda nazirliyin və Mətbuat Şurasının məsul şəxsləri, vətəndaş cəmiyyətinin nümayəndələri, jurnalistlər, ASAN könüllüləri, SABAH qrupları və hüquq fakültəsinin tələbələri iştirak ediblər.

Tədbirin açılışında Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov, Ədliyyə Nazirliyinin fəaliyyətinin hər zaman şəffaflıq və aşkarlıq prinsipləri əsasında qurulduğunu, ictimai iştirakçılığa, kütləvi informasiya vasitələri ilə qarşılıqlı fəaliyyətə böyük önəm verdiyini vurğulayıb, onların nazirliyin maarifləndirmə işlərində fəal iştirakının əhəmiyyətini qeyd edib, seminarın məqsədlərindən danışıb.

Tədbirin açılışında nazirliyin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəis müavini Aynur Sabitova və Mətbuat Şurasının sədr müavini Umud Mirzəyev çıxış edərək Ədliyyə Nazirliyi ilə media orqanları arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin, ədliyyə fəaliyyəti barədə əhalinin mütəmadi və daha geniş şəkildə məlumatlandırılmasının vacibliyini vurğulayıblar.

Sonra Probasiya xidmətinin

rəis müavini Musa Hümbətov məruzə ilə çıxış edərək cəza siyasətinin humanistləşdirilməsinə dair ölkə Prezidenti cənab İlham Əliyevin 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə yaradılmış nazirliyin Probasiya xidmətinin fəaliyyəti barədə məlumat verib, qısa müddətdə bu sahədə işin müasir tələblər səviyyəsində səmərəli təşkili ilə bağlı xeyli işlərin görüldüyü, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələrinin tətbiqini vurğulayıb.

Eyni zamanda, tədbirdə Probasiya xidmətinin Elektron monitorinq mərkəzinin fasiləsiz fəaliyyəti ilə bağlı videoçarx nümayiş olunub, KİV nümayəndələri elektron nəzarət vasitələrinin imkanları və tətbiqi xüsusiyyətləri ilə tanış olublar.

Sonda Probasiya xidmətinin yaranması və inkişafı, bu sahədə əldə olunan nailiyyətlər və xidmətin gələcək perspektivlərinə dair jurnalistlərin sualları cavablandırılıb.



Ədliyyə Akademiyası tərəfindən keçirilən maarifləndirmə tədbirləri mütəmadi xarakter daşımaqla nazirliyin bütün fəaliyyət istiqamətlərini əhatə edəcəkdir.

***

**Ədliyyə Akademiyasında hakimlər üçün "Probasiya sahəsində qanunvericiliyin tətbiqi məsələləri" mövzusunda ixtisasartırma kursu keçirilib.**

16 hakimin iştirak etdiyi təlimdə Ali Məhkəmənin hakimlərinin və Ədliyyə Nazirliyi Probasiya xidməti rəis müavininin mühazirələri dinlənilib.

Kursda probasiya institutunun anlayışı, məqsədi, bu sahədə xarici ölkələrin təcrübəsi, probasiyanın tətbiqi əsasları və şərtləri, azadlığın məhdudlaşdırılması cəzası ilə bağlı məsələlər diqqətə çatdırılıb.

Eyni zamanda hakimlər Probasiya xidmətində müasir avadanlıqlarla təchiz olunmuş Elektron monitorinq mərkəzi ilə tanış olub, elektron qolbağın istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib.

## ◆ Miqrasiya sahəsində qanunvericiliyin tətbiqinə dair təlim

**Lənkəran və Quba rayonlarında Beynəlxalq Miqrasiya Təşkilatı və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə hakimlər və vəkillər üçün "Beynəlxalq miqrasiya hüququ" mövzusunda təlimlər keçirilib.**

Ümumilikdə 35 nəfər hakim və vəkilin iştirak ilə keçirilən təlimdə Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi, Ədliyyə Akademiyasının müəllimi və Vəkillər Kollegiyası üzvlərinin təqdimatları dinlənilib.



Təlim iştirakçılarına Beynəlxalq Miqrasiya Hüququnun

(BMH) əsas elementləri / subyektləri, mənbələri, hüquqi və normativ çərçivəsi, insan alveri transmilli cinayət kimi, BMH standartlarının tətbiqində hüquq-muhafizə orqanlarının, məkhəmələrin və vəkillik institutunun rolu, dövlətlərin miqrasiya ilə bağlı səlahiyyətləri və beynəlxalq miqrasiya hüququ tərəfindən qoyulan məhdudiyyətlər, dövlət suverenliyi və hərəkət azadlığı hüquq kimi, geri qaytarılmama prinsipi/sığınacaq üçün müraciət edən şəxslərin geri qaytarılmama prinsipi (non-refoulement), ölkəyə daxil olma və qalmanın tənzimlənməsi, ölkədən çıxışın tənzimlənməsi və sair mövzularda ətraflı məlumatlar verilib.

Təlimlərdə, həmçinin mövzu ətrafında müzakirələr keçirilib, qruplar üzrə iş aparılıb və iştirakçılara müxtəlif tapşırıqlar verilib.

## ◆ Dövlət qulluğuna qəbul üzrə hazırlıq kursları

**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ödənişli əsaslarla dövlət qulluğuna (BA və BB vəzifə qrupları üzrə), məhkəmə və s. qurumlara qəbul olunmaq istəyən namizədlər üçün hazırlıq kursları təşkil edir.**

Kurslar hüququn müvafiq sahələri üzrə tədris proqramları əsasında Akademiya tərəfindən cəlb olunmuş təcrübəli təlimçilər tərəfindən aparılır.

Kurslarda iştirak etmək istəyən şəxslər aşağıdakı qeyd edilən telefon nömrəsi və e-mail vasitəsilə Akademiyaya müraciət edərək qeydiyyatdan keçə bilərlər:

Telefon: (012) 493-71-31 (103)
E-mail: info@aaj.gov.az
Ünvan: Bakı şəhəri, Vidadi küçəsi 158

# Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının ümumi yığıncağı keçirilib

**Martın 30-da Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının ümumi yığıncağı keçirilib.**

Tədbir iştirakçıları əvvəlcə Fəxri Xiyabana gələrək ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, Ümummilli Liderin xatirəsini böyük ehtiramla yad ediblər.

Yığıncaqda Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimləri İctimai Birliyinin (Assosiasiyasının) və Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının illik hesabatı dinlənilib.

Məruzə ilə çıxış edən birliyin və ittifaqın sədri, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin sədri Ələddin Cəfərov İttifaqın illik fəaliyyəti barədə məlumat verib, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı və hərtərəfli inkişafından, iqtisadi, sosial, mədəni və digər sahələrdə aparılan islahatlardan, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi, əhalinin ən müxtəlif kateqoriyalarının problemlərinin həllinə yönəlmiş tədbirlərdən danışıb.

Ə.Cəfərov bildirib ki, bu inkişaf məhkəmə fəaliyyətinə də öz müsbət təsirini göstərib. Ölkə Prezidentinin ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına dair tapşırıqları əsasında məhkəmə fəaliyyətinin və infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmə informasiya sisteminin tətbiqi üzrə mühüm tədbirlər həyata keçirilib. Son illər respublika məhkəmələrinin insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, ədalət mühakiməsinin qanuna müvafiq şəkildə həyata keçirildiyi müstəqil hakimiyyət qolu kimi fəaliyyət göstərmələri, cəmiyyətdə yüksək etimad qazanmaları bu sahədə beynəlxalq təcrübənin geniş tətbiqini şərtləndirib.

Həmçinin qeyd edib ki, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi prosesi 2018-ci ildə də davam etdirilərək Mülki-Prosessual Məcəlləyə "Elektron məhkəmə" informasiya sistemi-




nin geniş tətbiq edilməsini nəzərdə tutan köklü dəyişikliklər edilib, məhkəmə icraatı zamanı süründürməçilik, işlərə baxılmasının əsassız uzadılması hallarının qarşısını almaq məqsədilə məhkəmə hazırlıq və məhkəmə baxış iclaslarının təyin edilməsinin konkret müddəti müəyyən edilib, hakim tərəfindən məhkəmə baxışının təxirə salınması imkanı azaldılıb.

İttifaqın sədri onu da əlavə edib ki, fəliyyətə başladığı 2002-ci ildən hakimlərin fəaliyyətini vahid ictimai institut çərçivəsində əlaqələndirilməsinə, məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsinə, digər ölkələrin məhkəmə təcrübəsinin öyrənilərək səmərəli tətbiqinə, müsbət meyillərin tətbiqinə, qanunların təkmilləşdirilməsinə çalışan Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqı bu istiqamətlərdə mühüm nəticələrə nail olub. İttifaqın məhkəmələr və hakimlərlə iş sahəsində ixtisaslaşmış Beynəlxalq Hakimlər Assosiasiyası və onun regional qurumu olan Avropa Hakimlər Assosiyasiyası ilə sıx əməkdaşlığı da respublikamızın beynəlxalq nüfuzunun gücləndirilməsinə, əcnəbi təcrübənin öyrənilərək praktik şəkildə tətbiqinə xidmət edir.

Ələddin Cəfərov ölkə Prezidenti İlham Əliyevin məhkəmə qərarlarının ədalətliliyi, şəffaflığın artırılması, məhkəmə etikasına ciddi əməl edilməsi, məhkəmə fəaliyyətində korrupsiyanın aradan qaldırılması və şikayətlərin azaldılması barədə mühüm vəzifələrə daha ciddi yanaşmasını, vətəndaş-məmur münasibətlərinin sağlam meyarlar üzərində qurulmasını və insanlara qayğılı münasibət göstərilməsinə xüsusilə diqqətli olmaqla məhkəmə istifadəçiləri arasında, bütövlükdə cəmiyyətdə vətəndaş məmnunluğunun artırılmasını vurğulayıb.

Tədbirdə həmçinin, Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimlərinin İctimai Birliyinin (Assosasiyasının) illik hesabatı dinlənilib, məruzəçi - birliyin sədri, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi ötən dövr ərzində Assosiasiyanın fəaliyyəti barədə ətraflı məlumat verib.

Yığıncaqda Ali Məhkəmənin Cinayət kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Şahin Yusifov, Ali Məhkəmənin Mülki kollegiyasının hakimi Əsəd Mirzəliyev və İnzibati-iqtisadi kollegiyasının hakimi Xəqani Məmmədov "Məhkəmələr tərəfindən qətimkan tədbirlərinin tətbiqi təcrübəsi və qətimkan tədbirinin əsaslarının mövcudluğunun araşdırılması xüsusiyyətləri", "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2019-cu il fərmanından irəli gələn məsələlər barədə (kredit borcları ilə bağlı hazırda məhkəmələrdə olan iddiaların hüquqi taleyi barədə) və "İnzibati mübahisələrə baxılmasının xarakterik xüsusiyyətləri" mövzusunda çıxış edib, məhkəmə fəaliyyətinin aktual məsələləri ətrafında səmərəli müzakirələr, təcrübə və fikir mübadiləsi aparılıb, son il ərzində xarici ölkələrdə xidməti ezamiyyətdə olmuş hakimlər öz təəssüratlarını bölüşüb, qabaqcıl dünya təcrübəsi və məhkəmə fəaliyyəti sahəsində yeniliklər barədə həmkarlarına məlumat veriblər.

Sonda təşkilati məsələlərə baxılıb, hər iki birliyə yeni üzvlər qəbul edilib.

# Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir

**Martın 13-də Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzində bələdiyyələrin milli assosiasiyalarının sədrləri ilə görüş keçirilib.**

Görüşdə bələdiyyələrin işinin daha çevik əlaqələndirilməsi, onların fəaliyyətində qanunçuluğun və şəffaflığın təmin edilməsi, qarşılaşdıqları çətinliklərin aradan qaldırılması və digər aktual məsələlər müzakirə edilib.

Ölkə Prezidenti İlham Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində mütərəqqi islahatların həyata keçirildiyi, o cümlədən dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına yönələn islahatların yeni mərhələsinə start verildiyi qeyd olunaraq bələdiyyələrin də öz işlərini təkmilləşdirmələrinin zəruriliyi vurğulanıb.

Yerli sosial-iqtisadi məsələlərin həllində bələdiyyələrin fəallığının artırılması, bu sahədə informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən geniş istifadə olunması, o cümlədən elektron sənəd dövriyyəsinin, ayrı-ayrı elektron xidmətlərin tətbiqinin vacibliyi barədə fikir mübadiləsi aparılıb.

Eyni zamanda, dövlət başçısının 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planında nəzərdə tutulan "Bələdiyyələrin kəndin sosial-iqtisadi inkişafı ilə bağlı öhdəliklərinin artırılması"na dair tədbirin icrası, habelə qəbiristanlıqların idarə edilməsinin bələdiyyələrin səlahiyyətlərinə aid edilməsi ilə bağlı qarşıda duran vəzifələrin yerinə yetirilməsində, yerli vergi və ödənişlərin yığılmasında və yerli əhalinin məşğulluğunun artırılmasına nail olunmasında bələdiyyələrə hərtərəfli kömək göstərilməsi, bu məqsədlə milli assosiasiyaların da öz fəallıqlarını artırmasının önəmi qeyd olunub.

Görüşdə bələdiyyələrin beynəlxalq əlaqələrinin, o cümlədən milli assosiasiyaların Türk Dünyası Bələdiyyələr Birliyi ilə əməkdaşlığının genişləndirilməsi, yerli özünüidarəetmədə qadın və gənclərin daha fəal iştirakı və s. istiqamətlərdə də birgə səylərin artırılması vurğulanıb.

# Bələdiyyələrlə iş mərkəzində GİZ nümayəndələri ilə görüş



**Martın 14-də Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) Qiymətləndirmə missiyasının üzvləri ilə görüş keçirilib.**

Görüşdə "Cənubi Qafqazda Yaxşı Yerli Özünüidarəetmə Proqramı" çərçivəsində Bələdiyyələrlə iş mərkəzinin GİZ ilə səmərəli əməkdaşlığı və birgə həyata keçirilən tədbirlər qeyd olunaraq 2020-ci ildə proqramın müddətinin bitməsi ilə əlaqədar yeni proqram üzrə gələcək əməkdaşlıq istiqamətləri müzakirə edilib.

Missiya üzvləri "Publik Maliyyələşmə", "Yaxşı yerli idarəetmə", "Hüquqi islahatlar" proqramlarını özündə birləşdirən "Yeni Yaxşı İdarəçilik" modulu haqqında məlumat veriblər.

Eyni zamanda, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsul-

larının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə Ədliyyə Nazirliyinin əsas icraçısı olduğu "Bələdiyyələrin kəndin sosial-iqtisadi inkişafı ilə bağlı öhdəliklərinin artırılması" tədbiri ilə bağlı müzakirələr aparılaraq, bu istiqamətdə görülmüş işlər, seçilmiş pilot bələdiyyələrdə kəndin inkişaf modelinin yaradılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

GİZ-in nümayəndələri Strateji Yol Xəritəsi ilə yaxından tanış olaraq bu sahədə əməkdaşlıq perspektivlərinə toxunublar.

Ölkə başçısının 2018-ci il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı" müstəsna əhəmiyyəti qeyd olunaraq missiya üzvlərinə bu Proqramda nəzərdə tutulmuş yerli özünüidarəetmə sahəsində bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici ölkələrin yerli özünüidarəetmə orqanları ilə beynəlxalq təcrübə mübadiləsinin təşkil edilməsi və digər tədbirlər barədə məlumat verilib, qeyd olunan məsələlər üzrə qarşılıqlı fəaliyyətə dair ilkin razılıq əldə olunub.

# Bələdiyyələrin hüquqi maarifləndirilməsi üzrə ardıcıl tədbirlər görülür





**Ədliyyə Nazirliyinin İmişli regional ədliyyə idarəsinin təşkilatçılığı ilə martın 13-də İmişli rayonu üzrə bələdiyyə sədrləri və qulluqçuları üçün seminar keçirilib.**

Seminarı giriş sözü ilə açan İmişli regional ədliyyə idarəsinin rəisi Hakim Məmmədov Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlı həyata keçirilən tədbirlər, nazirliyin Bələdiyyələrlə İş Mərkəzi və regional ədliyyə idarələri tərəfindən bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi, onlara metodiki kömək göstərilməsi və fəaliyyətlərinə inzibati nəzarət sahəsində görülən işlər barədə məlumat verib, qarşıda duran vəzifələrdən danışıb.

Tədbirdə "Yerli özünüidarəetmədə etik davranış", "Dövlət büdcəsindən subvensiya alınması üçün layihələrin hazırlanması", "Strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı", "Bələdiyyə torpaqlarının mühafizəsi", "Bələdiyyə torpaqlarının idarə edilməsində qanunçuluğun təmin edilməsi" və "Qəbiristanlıqların saxlanılması, idarə olunması, abadlaşdırılması, köçürülməsi sahəsində bələdiyyələrin hüquq və vəzifələri" mövzularında seminar iştirakçılarına ətraflı məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda regional ədliyyə idarənin rəisi H.Məmmədov seminar-müşavirəyə yekun vuraraq qarşıda duran vəzifələri bələdiyyə nümayəndələrinin diqqətinə çatdırıb.

# Ədliyyə işçiləri internat evlərinin sakinlərini sevindiriblər

**Ədliyyə Nazirliyi tərəfindən Novruz Bayramı münasibətilə Abşeron rayonu Saray qəsəbəsində yerləşən 2 saylı və Xəzər rayonu Şağan qəsəbəsində yerləşən 3 saylı əqli və fiziki qüsurlu uşaqlar üçün nəzərdə tutulan internat evlərində bayram şənliyi təşkil edilib.**



Nazirliyin Birləşmiş Həmkarlar İttifaqının xətti ilə mütəmadi olaraq keçirilən növbəti tədbirdə ədliyyə işçiləri uşaqların qayğıları ilə maraqlanıb, xüsusi bacarığı olan uşaqlar tərəfindən hazırlanmış əl işləri ilə tanış olub, onları əlamətdar bayram münasibətilə təbrik edib, xoşbəxtlik və firavan həyat arzulayıblar.

Nazirliyin nümayəndələri ulu öndər Heydər Əliyevin dövlət inkişafı kursunu uğurla həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uşaqlara daim diqqət və qayğı ilə yanaşıldığını və onların problemlərinin həlli istiqamətində konkret addımların atıldığını bildiriblər. Həmçinin, xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial müdafiəsi və reabilitasiyası, müasir infrastrukturların yaradılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın nəcib və xeyirxah fəaliyyəti qeyd olunub.

Musiqili-əyləncəli proqramla davam edən şənlikdə ədliyyə işçiləri tərəfindən uşaqlara bayram hədiyyələri, müxtəlif oyuncaqlar təqdim olunub.

İnternat evlərinin rəhbərliyi daim dövlət qayğısı ilə əhatə olunan uşaqlar üçün belə bir tədbirin təşkil olunmasına görə Ədliyyə Nazirliyinə öz minnətdarlığını ifadə edib.

Novruz şənliyi uşaqların böyük sevincinə səbəb olub.

# Azərbaycan dilində "Məhkəmə ekspertizası" adlı ilk dərslik nəşr olunub

**Məhkəmə ekspertizası sahəsində böyük təcrübəyə malik olan mütəxəssislər tərəfindən yazılmış "Məhkəmə ekspertizası" dərsliyi dövlət təhsil standartlarına uyğun olaraq Azərbaycan dilində hazırlanmış ilk dərslikdir.**

Cinayət, mülki və inzibati mühakimə icraatında məhkəmə ekspertizası formasında xüsusi biliklərin tətbiqinin müasir imkanlarını əks etdirən dərslikdə məhkəmə ekspertizasının ümumi (prosessual, təşkilati, metodiki) və xüsusi (sinif, növ, cins) məsələləri nəzərdən keçirilib. Burada xüsusi biliklərin anlayışı və tətbiqi formaları, məhkəmə ekspertizasının mahiyyəti, predmeti, obyektləri, ekspert məsələləri və onların növləri, elmi və

onun inkişaf qanunauyğunluqları şərh olunub, konkret ekspertiza növləri təhlil edilib və onlarla bağlı ekspertlər tərəfindən həll edilməli olan sualların siyahısı və təcrübi tövsiyələr verilib.

Eyni zamanda məhkəmə ekspertizası fənninin tədris olunması tələbələrdə bu sahənin səciyyəvi xüsusiyyətləri və digər məsələlər haqqında geniş təsəvvür yaratmış olar. Burada əsas məqsəd cinayətlərin açılmasında, istintaqında və qarşısının alınmasında, habelə mülki, inzibati və cinayət işləri üzrə icraatın aparılmasında xüsusi biliklərin tətbiqi şərtlərinin, ayrı-ayrı ekspertiza növlərinin xüsusiyyətlərinin, məhkəmə ekspertizasının hüququn sahələri ilə qarşılıqlı əlaqəsinin tələbələr tərəfindən dərk edilməsidir.

Hər bir gənc hüquqşünasın ekspertizanın təyin olunması və aparılması ilə bağlı qanunvericilik normalarını rəhbər tutmaqla ekspert rəyinin, ayrı-ayrı ekspertiza növləri üzrə ekspert qarşısında qoyulan sualların düzgün tərtib olunması, ekspertizanın hazırlıq və tədqiqat mərhələlərində, eləcə də ekspert rəyinin qiymətləndirilməsi zamanı ekspertlərlə təmas qurulması vərdişlərinə yiyələnməsi məsələləri "Məhkəmə ekspertizası" fənninin tədrisi prosesində aşılanır.

Müəlliflər kollektivi Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin rəisi h.ü.e.d., prof. F.M.Cavadov və rəis müavini h.ü.f.d. H.Ə.Musayev, "Kriminalistika və məhkəmə ekspertizası" kafedrasının müdiri, h.ü.e.d., prof. K.N.Səlimov və h.ü.f.d., dosent İ.S.Abbasova, h.ü.e.d. M.H.Mustafayev, h.ü.f.d., dosent B.M.Əsgərov və h.ü.f.d. G.A.Rzayeva tərəfindən yazılmış "Məhkəmə ekspertizası" dərsliyi bakalavriat və magistratura proqramı üzrə materialların şərh olunmasının əsas metodiki prinsiplərindən istifadə olunmaqla hazırlanıb.




Bu zaman, həmçinin xarici və yerli mənbələrə müraciət edilib, ayrı-ayrı mövzular üzrə müqayisəli təhlillər aparılıb, eləcə də əyaniliyin təmin olunması məqsədilə təcrübədən götürülmüş ekspert rəylərinə və sair materiallara istinad olunub.

Nəşrdə məhkəmə ekspertizasının perspektiv inkişaf istiqamətlərindən biri kimi müstəqil elm sahəsinin - məhkəmə ekspertologiyasının yaradılması zəruriliyinin əsaslandırılmasına da cəhd edilib. Kitab Azərbaycan dilində hazırlanmış ilk dərslik olduğundan, şübhəsiz ki, bir sıra qüsur və çatışmazlıqlardan azad deyildir. Müəlliflər kollektivi onların aradan qaldırılması üçün təklif, arzu və iradlarını bildirən dəyərli oxuculara əvvəlcədən öz minnətdarlığını bildirir.

Kitab Zaqafqaziyada ilk qadın kriminalist-alim, respublikamızda ilk Kriminalistika və məhkəmə ekspertizası kafedrasının yaradıcısı, adı yüzlərlə hüquqşünasın yaddaşına əbədi həkk olunan, əziz müəllimimiz-professor Kamilə xanım Sarıcalinskayanın unudulmaz xatirəsinə ithaf olunub.

Dərslik tələbələr, doktorantlar, ali məktəb müəllimləri, həmçinin təhqiqat, istintaq, ekspertiza, məhkəmə orqanlarının işçiləri və bütövlükdə respublikanın elm və hüquq ictimaiyyəti üçün nəzərdə tutulub.

# Vətəndaş qəbulunun psixoloji aspektləri

**Ölkə Prezidenti İlham Əliyevin dövlət orqanları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşması barədə tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, bu məqsədlə nazirlikdə Vətəndaşların qəbulu şöbəsi və məsləhətçi-psixoloq ştatı yaradılmışdır.**




Psixoloq vətəndaşların qəbulu şöbəsinə müraciət edən şəxslərin və mürəkkəb icra işlərinin (uşaqla ünsiyyət və s.) icrası zamanı tərəflərin dinlənilməsində müntəzəm iştirak edir və onlara psixoloji məsləhətlər verir, həssaslıq tələb edən vətəndaşlara psixoloji yardım göstərir və psixi cəhətdən problemli vətəndaşlar barədə aidiyyəti əməkdaşları məlumatlandırır. Həmçinin, vaxtaşırı nazirliyin əməkdaşları üçün psixoloji treninqlər və seminarlar keçirilir.

Qeyd olunmalıdır ki, psixologiya və hüquq elmləri sistemini bir-birinə birləşdirən bir ümumi cəhət var ki, o da onların hər ikisinin tədqiqat obyektinin insanın rəftarı və davranışı, daxili psixoloji aləmi və fərdi-psixoloji xüsusiyyətləri ilə əlaqədar olmasıdır. Məsələn, şəxs cinayət törətdiyi halda onun öz əməlinə psixi münasibəti, yəni təqsiri hüquq elmi, cinayətin baş verməsinə səbəb olan amillər və həmin zamanda təqsirləndirilən şəxsin davranışı isə psixologiya elmi tərəfindən araşdırılır. Hətta 1960-cı illərdən başlayaraq psixologiyanın prinsiplərini və hüquqi tətbiqetməni özündə birləşdirən hüquq psixologiyası elmi yaranmağa başlamışdır ki, onun da məhkəmə psixologiyası, kriminal psixologiya və digər bölmələri vardır.

Psixologiya elminin müxtəlif sahələrinin nailiyyətlərinin hüquq praktikasında tətbiqi həmin elm sahəsinin daha da təkmilləşdirilməsində və humanistləşdirilməsində xüsusi rol oynayır. Heç şübhəsiz ki, hüquqi normalarla tənzimlənən münasibətlər, həm də psixoloji qanunauyğunluqlarla şərtlənir.

İnsanların müxtəlif xarakter və temperament xüsusiyyətləri, həyat təcrübəsi, təhsili və sair digər sosial-psixoloji amillər onu digərlərindən fərqləndirir və cəmiyyətdəki münasibətlərdə rəngarəngliyi təmin edir.

Vətəndaş qəbulunun psixoloji aspektlərindən danışarkən ilk növbədə qeyd edilməlidir ki, hər bir məmur, o cümlədən ədliyyə qulluqçusu üzərinə düşən məsuliyyəti dərk etməli, vəzifələrini layiqincə icra etməli və qanunverciliyin tələblərini işində rəhbər tutmalıdır. Çünki belə davranış insanlarda düzgün hüquq düşüncəsinin formalaşmasına, qanunçuluğun və ictimai qaydanın bərqərar edilməsinə, vətəndaşların qanunlara dönmədən hörmət ruhunda tərbiyə edilməsinə rəvac verir.

Antik yunan filosofu Sokrat

deyirdi ki, hüquqşünasda 4 zəruri keyfiyyət olmalıdır: "o, səbrlə və nəzakətlə dinləməli, ağılla cavab verməli, soyuqqanlı düşünməli və qərəzə yol vermədən ədalətli qərar qəbul etməlidir".

Nəzərə alınmalıdır ki, vətəndaş qəbulu dövlətin insanlarla canlı ünsiyyətidir, ünsiyyət özü isə qarşılıqlı mürəkkəb bir prosesdir. Ünsiyyət - insanların öz münasibətlərini aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsiridir. Təsadüfi deyil ki, psixologiya sahəsində tədqiqatçılar ünsiyyəti insanların bir-birini anlaması və başa düşməsi prosesi (S.L.Rubinşteyn), fikirlərin təəssüratların başqalarına verilməsi prosesi (L.S.Vıqotski), insanların başqalarına olan tələbatı (Y.L.Kolominski) və s. hesab etmişlər.

Müasir sosial psixologiyada ünsiyyətin üç mühüm cəhəti qeyd olunur:

1) ünsiyyət informasiya mübadiləsi kimi və yaxud ünsiyyətin kommunikativ tərəfi;

2) ünsiyyət qarşılıqlı təsir prosesi kimi və ya ünsiyyətin interaktiv tərəfi;

3) ünsiyyət insanların bir-birini qavraması, anlaması kimi və yaxud ünsiyyətin perspektiv tərəfi.

Ünsiyyətin özünəməxsus məzmunu, məqsədi və vasitələri mövcuddur (R.S.Nemov).

Qəbullar zamanı aparılan müşahidələrə əsasən demək olar ki, qəbul üçün müraciət edən şəxslərlə ünsiyyət zamanı onların böyük əksəriyyətinin müraciəti emosional gərginliklə müşayiət edilən şikayət xarakterli olur. Çünki yazdığı müraciətə onu qane edən cavab almayan və yaxud hüquqları pozulan vətəndaş dövlətə bu barədə öz fikirlərini canlı şəkildə - əksər hallarda isə əsəb gərginliyi və aqressiya ilə çatdırır. Vətəndaşı qəbul edən hər bir dövlət qulluqçusu və məmuru bu ünsiyyət prosesində dövlətin siması kimi çıxış edir.



Belə hallarda məsələnin həlli istiqamətində vətəndaşa lazımı kömək göstərilməsi, qanunvericiliyin tələblərinin əyani şəkildə ətraflı izahı, mərhəmət, şəraitə uyğun yumor, üzrxahlıq və sair bu kimi hərəkətlər aqressiv tendensiyaları xeyli azaldır və öz müsbət təsirini göstərir. Məsələn, uca səslə danışan əsəbi şəxsə su içmək, xəstə və əlillərə tibbi yardım üçün həkim çağırmağı təklif etmək və s.

Unutmaq olmaz ki, danışarkən aqressivlik göstərən şikayətçi əslində bir çox hallarda bunu qəsdən etmir, o inandırmağa çalışır ki, hüquqları pozulmuşdur və o zərər çəkmişdir.

Lakin buna baxmayaraq, bəzi hallarda vətəndaşlar əsassız imtiyazlar, güzəştlər tələb edir, qanunsuz tələblər irəli sürür, hətta məqsədlərinə nail olmaq üçün hədə ilə mübahisə etməyə cəhd edirlər. Belə şəxslər bir qayda olaraq, psixi cəhətdən problemli və ya ahıl yaşlı şəxslərdir. Bu cür hallarda soyuqqanlı olmaq, məsələyə qəti münasibət göstərmək və etik davranış qaydalarının tələblərinə ciddi riayət etmək olduqca zəruridir.

Qəbul zamanı vətəndaşın dinlənilməsi olduqca mühümdür, demək olar ki, qəbul işinin keyfiyyəti qarşıdakı şəxsi məhz diqqətlə dinləməkdən asılıdır. Çünki insanlar onlara

qulaq asan şəxslərə problemlərini səmimi şəkildə ətraflı danışır, həmçinin onlarda qəbul edən şəxsə etimad hissi yaranır (dinləmə zamanı bədən dilindən istifadə, məsələn, başı yavaşca önə və arxaya tərpətmək, danışarkən gözlərin içinə baxmaq, mimikada şikayətçinin düşdüyü pis vəziyyətə görə təəssüf hissi və s.). Müşahidələr göstərir ki, vətəndaşı qəbul edən şəxs onu yaxşı dinlədikdən sonra hətta şikayətçinin problemi həll edilməsə belə, sonuncu bundan narazı qalmır. Təsadüfi deyil ki, bəzən şikayətçilər əbəs yerə demirlər ki, "filan məmur heç məni dinləmədi".

Qəbul zamanı mühüm məqamlardan biri də qəbula müraciət edən şəxsin müraciəti üzrə qeydlər aparmaq, təqdim etdiyi sənədlərə baxmaq, fikir mübadiləsi aparmaq (sual-cavab) və ətraflı izah verməkdir.

Qəbulun əsas funksiyası inandırmaqdır. Bu isə çox çətin və mürəkkəb olmaqla yanaşı, peşəkarlıq tələb edir. Çünki probleminin həllinə inanmayan şəxs şikayət etməkdə davam edir və bu isə birbaşa qəbulun keyfiyyətinə təsir edir. Qəbul o zaman həlledici olur ki, orada vətəndaş inamına və etimadına nail olunur. İnandırmaq üçünsə ilk növbədə mədəni və nəzakətli olmaq, savadlı və intonasiyalı danışmaq, həmçinin fikirlərini istinad edilən dəlillərlə məntiqli əsaslandırmaq və sübut etmək lazımdır. Həmçinin, məsələ ilə bağlı əvvəlki təcrübəyə istinad, qanunun tələblərinə əməl olunmasını təlqin etmək, hüquq pozuntusunun yolverilməzliyi və məsuliyyət barədə xəbərdarlıq müsbət nəticə verir.

Məlum olduğu kimi, 07.12.2018-ci il tarixdə ölkəmizdə psixoloji yardım göstərilməsinin hüquqi əsaslarını, psixoloji yardım alan şəxslərin və psixoloqların hüquqlarını və vəzifələrini müəyyən edən və bu sahədə yaranan münasibətləri tənzimləyən "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda dövlət tərəfindən vətəndaşlara vaxtında, keyfiyyətli psixoloji yardım almaq hüququna təminat verildiyi göstərilmiş, bu sahədə istifadə edilən anlayışlar, psixoloji yardımın növləri və formaları, əsas prinsipləri, psixoloji yardımın konfidensiallığı və anonimliyi kimi bir çox vacib məsələlər tənzimlənmişdir. Həmin Qanunun 6-cı maddəsinə əsasən təqsirləndirilən şəxslərin və məhkumların ödənişsiz psixoloji yardım almaq hüquqi təsbit edilmişdir. Bu kateqoriya şəxslərə psixoloji yardımın göstərilməsi çox vacibdir. Bununla bağlı nazirlik tərəfindən Penitensiar xidmətdə fəaliyyət göstərən psixoloqların təkmilləşdirilməsi üçün superviziyaların təşkili üzrə tədbirlər nəzərdə tutulmuş və bu istiqamətdə də işlər aparılmaqdadır.

Göründüyü kimi, psixoloji xidmət hazırkı dövrün tələblərindən hesab olunur. Muasir gənclik - gələcəyin rəhbəri, məmuru və dövlət qulluqçusudur. Onların fiziki və psixoloji inkişafı və cəmiyyətdə sağlam psixoloji mədəniyyət formalaşdırılması vacib məsələlərdəndir. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar bu istiqamətdə də həyata keçirilən tədbirlərə öz müsbət təsirini göstərəcəkdir.

**Zülfiyyə Yaqubova,**
**Ədliyyə Nazirliyi Katibliyinin Vətəndaşların qəbulu şöbəsinin məsləhətçisi (psixoloq)**

## "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

"15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N 2, maddə 83, N 11, maddə 1364; 2015, N 6, maddə 682; 2018, N 10, maddə 1986) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.2-1-ci maddə əlavə edilsin:

"1.2-1. Doğum haqqında şəhadətnamə ilə birlikdə ilk dəfə verilən fərdi identifikasiya kartının alınması üçün vətəndaşın qanuni nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs də müraciət edə bilər.".

2. 3.2-ci maddəyə "nümayəndəsi" sözündən sonra "və ya bu Qanunun 1.2-1-ci maddəsində nəzərdə tutulmuş halda onun notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs" sözləri əlavə edilsin.

3. 7-ci maddəyə "nümayəndəsindən" sözündən sonra "və ya onun notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxsdən" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 1 fevral 2019-cu il*
*N 1467-VQD*

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 3 (I kitab), maddə 126; 2002, N 12, maddə 702; 2004, N

7, maddə 505; 2006, N 2, maddə 66, N 11, maddə 923, N 12, maddələr 1005, 1006; 2007, N 1, maddə 4, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1218; 2008, N 7, maddə 602; 2010, N 2, maddə 70, N 3, maddə 171, N 5, maddə 380, N 7, maddə 578; 2011, N 7, maddələr 585, 620, N 12, maddə 1110; 2014, N 12, maddə 1515) 166.2-ci maddəsində "valideynlər və ya onlardan biri, valideynlərin müəyyən səbəblərə görə (xəstə olduqda, öldükdə və sair) müraciət etməsi mümkün olmadıqda isə qohumlar, qonşular, uşağın doğulduğu tibb müəssisəsinin müdiriyyəti və yaxud başqa şəxslər" sözləri "uşağın valideyni, qəyyumu, himayəçisi və ya onların notariat qaydasında təsdiq edilmiş etibarnaməsi əsasında təyin olunmuş şəxs" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
*Bakı şəhəri, 1 fevral 2019-cu il*
*N 1469-VQD*

## Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 14-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Ailə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 3 (I kitab), maddə 126; 2002, N 12, maddə 702; 2004, N 7, maddə 505; 2006, N 2, maddə 66, N11, maddə 923, N 12, maddələr 1005, 1006; 2007, N 1, maddə 4, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1218; 2008, N 7, maddə 602; 2010, N 2, maddə 70, N 3, maddə 171, N 5, maddə 380, N 7, maddə 578; 2011, N 7, maddələr 585, 620, N 12, maddə 1110; 2014, N 12, maddə 1515; 2015, N4, maddə 348) 164.1-ci maddəsində "təqdim edildikdə" sözləri "əsasında" sözü ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu sənədlər üzrə məlumatların elektron informasiya sistemlərindən əldə edilməsi mümkün olduğu hallarda həmin sənədlər şəxslərdən tələb olunmur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
*Bakı şəhəri, 1 fevral 2019-cu il*
*N 1470-VQD*

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də və 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1307-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, N 4, maddə 323, N 12, maddə 1034; 2007, N 11, maddə 1105, N 12, maddə 1246; 2009, N 7, maddə 533, N 8, maddə 627, N 10, maddə 773, N 12, maddələr 983, 988; 2010, N 2, maddə 83, N 4, maddə 292, N 11, maddə 966; 2011, N 1, maddə 18, N 2, maddə 85, N 4, maddə 281, N 6, maddə 497, N 10, maddə 894, N 11, maddə 993; 2012, N 10, maddə 950; 2014, N 6, maddə 627, N 7, maddə 820, N 9, maddə 1029; 2016, N 1, maddə 77; 2017, N 2, maddə 184, N 10, maddə 1784; 2018, N 6, maddə 1205, N 7 (I kitab), maddə 1480) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.8-1-ci və 9.15-1-ci bəndlər əlavə edilsin:

"8.8-1. dəfnlərin vahid dövlət reyestrini aparır;";

"9.15-1. dəfnlərin vahid dövlət reyestrinə ötürülən məlumatların tamlığına, həmin məlumatların müəyyən edilmiş müddətdə reyestrə ötürülməsinə nəzarəti həyata keçirmək;".

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 5, maddə 765, N 9, maddə 1650, N 10, maddə 1789, N 12 (I kitab), maddələr 2314, 2321; 2018, N 1, maddə 54, N 2, maddələr 200, 219, N 3, maddələr 416, 430, 448, N 5, maddələr 916, 919, N 6, maddə 1243, N 9, maddələr 1828, 1840, N 11, maddələr 2274, 2289, N 12 (I kitab), maddələr 2540, 2587; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 yanvar tarixli 492 nömrəli və 7 fevral tarixli 517 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 9-cu hissəyə "184.1.4" rəqəmlərindən sonra ", 516-1.1, 516-1.3 (qəbir yerlərinin rezervasiyası tələblərinin pozulmasına münasibətdə)" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 55-3-cü hissə əlavə edilsin:

"55-3. Məcəllənin 516-1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta (dəfnlərin təşkili zamanı sanitariya-gigiyena normalarının pozulmasına münasibətdə) haqqın-

da işlər üzrə protokol Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi adından - səhiyyə naziri, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru, onun müavini, şöbə və bölmə müdirləri, onların müavinləri, şəhər və rayon gigiyena və epidemiologiya mərkəzlərinin direktoru, onun müavini, şöbə və bölmə müdirləri, onların müavinləri.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 19 mart 2019-cu il*
*N 591*

## Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Bakı Apellyasiya Məhkəməsinin hakimi Abiddin Hüseynov, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Elnur Nuriyevin,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının baş müəllimi Fəridə Cabbarlının,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin müdiri Bəhman Qəribov, Azərbaycan Respublikası Prokurorluğunun Hüquqi təminat idarəsinin rəis müavini Aynur Osmanova, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının İxtisas komissiyasının üzvü Mehman Sultanov və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Hüquq proqramının eksperti Elçin Usubun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**M Ü Ə Y Y Ə N  E T D İ:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 125-ci maddəsi-

nin VII hissəsinin mülki məhkəmə icraatında tətbiqi ilə bağlı təcrübədə fikir ayrılığı olduğundan həmin normanın şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, Azərbaycan Respublikasının Ali Məhkəməsi konkret iş üzrə Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinə istinad edərək qərarında göstərmişdir ki, işə apellyasiya qaydasında yenidən baxılarkən əsl həqiqətin müəyyən edilməsi üçün qanunda nəzərdə tutulmuş tədbirlər görülməlidir.

Bununla bağlı müraciətdə bildirilir ki, hüquq ədəbiyyatında həqiqətin iki növü fərqləndirilir: işin həqiqi hallarına müvafiq olaraq məhkəmənin gəldiyi nəticə (obyektiv həqiqət) və işdə olan sübutlar əsasında məhkəmənin gəldiyi nəticə (formal həqiqət).

Müraciətedənin qənaətinə görə, qüvvədə olan Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində (bundan sonra - Mülki Prosessual Məcəllə) hakimin təşəbbüsü minimuma endirilmiş, ekspertiza təyin olunması istisna olmaqla, hakimə öz təşəbbüsü ilə sübutlar toplamaq səlahiyyəti verilməmişdir. Məcəllədə məhkəmənin həqiqətə nail olmaq vəzifəsi yalnız tərəflər üçün lazımi şəraitin yaradılması, prosessual hüquq və vəzifələrin onlara izah edilməsi ilə məhdudlaşır. Qanunvericilikdə "formal həqiqətin müəyyən edilməsi" ayrıca prinsip kimi nəzərdə tutulmasa da, məhkəmənin yalnız işdə olan sübutlar əsasında həqiqəti müəyyən etmək vəzifəsi aydın ifadə edilmişdir.

Müraciətdə həmçinin göstərilir ki, Mülki Prosessual Məcəllənin yalnız bir maddəsində işin həqiqi hallarına istinad olunur. Belə ki, Məcəllənin 106.4-cü maddəsinə görə, məhkəmə faktın etiraf olunmasının işin həqiqi hallarının gizlədilməsi məqsədi ilə və yaxud aldatma, zor, hədə və ya yanılma təsiri nəticəsində baş verməsinə şübhə edirsə, etirafı qəbul etmir. Bu halda həmin faktlar ümumi qaydada sübut olunmalıdır. Lakin bu maddədə də hakimin üzərinə birbaşa olaraq işin həqiqi hallarını araşdırmaq vəzifəsi qoyulmamış və bununla bağlı hər hansı prosessual qayda müəyyən edilməmişdir.

Müraciətedən hesab edir ki, müraciətdə qeyd olunan qeyri-müəyyənlik son nəticədə mülki prosessual qanunvericilik normalarının fərqli qaydada tətbiq edilməsinə, mülki prosesdə hakimin rolu ilə bağlı ziddiyyətli yanaşmaların mövcudluğuna və tərəflər üçün qeyri-bərabər şəraitin yaradılmasına səbəb ola bilər. Bu hal isə eyni xarakterli mübahisələr üzrə fərqli məhkəmə aktlarının qəbul edilməsi, hüquqi müəyyənlik prinsipinin, fiziki və hüquqi şəxslərin Konstitusiyanın 25-ci maddəsində təsbit edilmiş bərabərlik və 60-cı maddəsində təsbit edilmiş hüquq və azadlıqların məhkəmə müdafiəsi hüquqlarının pozulması ilə nəticələnə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələ ilə bağlı aşağıdakıları qeyd edir.

Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinə əsasən, məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir.

Konstitusiyanın göstərilən maddəsində təsbit edilmiş "həqiqət" anlayışı daha çox fəlsəfi məhfum olduğundan, onun fəlsəfi mənasını anlamadan hüquqi mənasının dərk edilməsində çətinliklər yaranar.

Fəlsəfədə həqiqət idrak nəzəriyyəsinin əsas və mərkəzi məsələlərindən biri hesab edilir və onun mütləq və nisbi anlayışları mövcuddur.

Mütləq həqiqət - dolğun və bitkin formada olan obyektiv həqiqətə deyilir. Mütləq həqiqət elə bir biliyə deyilir ki, elmin və praktikanın sonrakı inkişafının gedişində onu təkzib etmək mümkün olmur.

Nisbi həqiqət isə elə bir bilikdir ki, gerçəkliyi əsasən düzgün əks etdirir. Lakin onu dolğun deyil, müəyyən hüdud daxilində, müəyyən şəraitdə və münasibətlərdə əks etdirir. Elmin sonrakı inkişafında bu bilik dürüstləşir.

"Həqiqət" anlayışı həmçinin hüquqda, xüsusilə prosessual hüquqda əhəmiyyət kəsb edən məsələlərdən biridir. Eyni zamanda, bu məsələ ilə bağlı hüquq nəzəriyyəsində və təcrübədə mübahisə doğuran bəzi məqamlar mövcuddur. Bir çox halda hüquqşünasların qarşısında belə suallar meydana çıxır: məhkəmə iş üzrə həqiqəti müəyyən etmək üçün fəallıq göstərməlidirmi və ya məhkəmə tərəflərin öz tələb və etirazlarını sübut etməsi zamanı çəkişmələrini müşahidə etməli və yalnız onlar tərəfindən təqdim olunan sübutlara əsaslanmalıdır? Məhkəmə hansı həqiqəti müəyyən etməlidir, formal və yaxud obyektiv (real) həqiqəti?

Bu suallara cavab vermək üçün bir sıra mühüm məsələlərə aydınlıq gətirilməlidir.

Konkret mülki işin baxılması və həll edilməsi zamanı həqiqətin müəyyən edilməli olması heç kim tərəfindən və heç bir zaman inkar edilməmişdir. Bu inkar olunarsa, mülki işlərin baxılması və həll edilməsi zamanı tətbiq edilən "ədalət mühakiməsi" anlayışı öz mənasını itirmiş olar.

Hüquqi mənada həqiqət, icraatın formasından (konstitusiya, mülki, cinayət, inzibati) asılı olmayaraq, sahələrarası funksional prinsip statusuna malikdir. Bundan əlavə bu prinsip həmin sahənin prinsipləri sistemində xüsusi yer tutur.

Tədqiq olunan prinsiplə əlaqədar nəzəriyyədə əsas məsələ mülki işlər üzrə icraatın gedişində məhkəmə tərəfindən müəyyənləşdirilən həqiqətin xarakteridir. Bu məsələnin həlli, çəkişmə prinsipinin mülki işdə hüquqi cəhətdən mühüm əhəmiyyət kəsb edən halların sübut edilməsində tərəflərin və məhkəmənin vəziyyətini müəyyən edən hissəsi ilə sıx əlaqəlidir.

Hüquq sistemlərində "həqiqət" anlayışına fərqli yanaşmalar mövcuddur. Anqlo-sakson hüquq sisteminə xas olan formal həqiqət xalis çəkişmədir və sübutetmə prosesində məhkəmənin passivliyini nəzərdə tutur: məhkəmə, tərəflərin sübut kimi təqdim etdiklərini dəyərləndirməklə kifayətlənən, qərəzsiz arbitr rolunda çıxış edir.

Roman-german hüquq sisteminə aid Avropa ölkələrində əvvəllər məhkəmə tərəflərin mübahisəsini həll edən və arqumentləri dinləyən passiv arbitr rolunu deyil, əksinə prosesin fəal iştirakçısı olan, faktları müəyyən etmək və aydınlaşdırmaq, prosesə fəal müdaxilə edərək həqiqəti müəyyən etmək məqsədilə istintaqı həyata keçirən orqan rolunu oynayırdı. Sonradan kontinental Avropa hüququnun prosessual formatı dəyişərək ədalət sistemində "istintaq" əlamətləri azalmış və daha çox çəkişməli məhkəmə sisteminə üstünlük verilmişdi.

Roman-german hüquq sisteminə aid olan Azərbaycanın mülki porosessual hüququ da bu cür transformasiyaya məruz qalmışdır. Belə ki, 2000-ci ilədək qüvvədə olmuş Mülki Prosessual Məcəllənin 14-cü maddəsi müəyyən etmişdi ki, məhkəmə təqdim olunmuş materiallarla və izahatlarla kifayətlənməyərək, işin həqiqi hallarını, tərəflərin hüquq və vəzifələrini hərtərəfli, tam və obyektiv surətdə aydınlaşdırmaq üçün qanunla nəzərdə tutulan bütün tədbirləri görməlidir. Həmçinin həmin Məcəllənin 49-cu maddəsinin ikinci hissəsində təsbit olunmuşdur ki, təqdim edilmiş sübutlar kifayət olmadıqda, məhkəmə tərəflərə və işdə iştirak edən digər şəxslərə əlavə sübutlar təqdim etməyi təklif edir və ya sübutları öz təşəbbüsü ilə toplayır.

Bu maddələrin mətnindən göründüyü kimi, məhkəmə təkcə tərəflərin təqdim etdiyi hüquqi faktların real və obyektiv mövcudluğu ilə kifayətlənməyərək, həmin faktlar əsasında istənilən məlumatı öz təşəbbüsü ilə toplayırdı.

Bundan fərqli olaraq, 2000-ci il 1 sentyabr tarixindən qüvvəyə minmiş Mülki Prosessual Məcəllədə tərəflərin çəkişməsi prinsipinə daha böyük önəm verilmişdir. Yeni Mülki Prosessual Məcəllədə əvvəlki Məcəllənin yalnız 14, 49-cu və digər maddələri formal dəyişdirilməmiş, qanunvericinin həqiqətin müəyyən edilməsinə olan yanaşması, baxışı dəyişmişdir. Mülki Prosessual Məcəllədə çəkişmə prinsipi və Məcəllədə birbaşa göstərilməyən, lakin nəzərdə tutulan dispozitivlik prinsipi xüsusi yer tutmuşdur.

Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında vurğulamışdır ki, dispozitivlik prinsipi işdə iştirak edən şəxslərin prosesin əmələ gəlməsi, gedişatı və sona yetməsi ilə əlaqədar öz hüquqları barəsində sərbəst sərəncam verməsində ifadə olunur.

Bu prinsipə əsasən hakim deyil, yalnız tərəflər mülki prosesin başlanması, onun predmetinin dairəsi və mülki prosesin yekunlaşdırılması barədə qərar qəbul edir. Proses məhkəmənin publik iradəsindən deyil, tərəflərin iradəsi və fəallığından asılı olaraq həyata keçirilir.

Belə ki, iş yalnız şəxsin ərizə və ya şikayəti əsasında başlanır (Mülki Prosessual Məcəllənin 5.1-5.3-cü maddələri). İddiaçı iddiadan imtina edə bilər, cavabdeh iddianı etiraf edə bilər, tərəflər məhkəmə işini barışıq sazişi bağlamaqla tamamlaya bilər (Mülki Prosessual Məcəllənin 5.4, 52.1-52.3-cü maddələri).

Bununla belə nəzərə almaq

lazımdır ki, iddiaçının iddiadan imtina etməsi, iddianın cavabdeh tərəfindən etiraf edilməsi və tərəflərin barışıq sazişi qanuna zidd olarsa və ya hər hansı bir şəxsin hüquqlarını və qanunla qorunan mənafeyini pozarsa, məhkəmə belə hərəkətləri qəbul etmir. Belə hallarda məhkəmə mübahisəyə mahiyyəti üzrə baxır.

Dispozitivlik prinsipi prosesin digər əsas prinsiplərindən biri olan çəkişmə prinsipi ilə sıx əlaqədardır.

Məhkəmə tərəfindən obyektiv, düzgün, ağlabatan qərarın qəbul edilməsi üçün "audiatur et altera pars" - "digər tərəf də dinlənilməlidir" qaydası tətbiq edilməlidir.

Mülki Prosessual Məcəllədə çəkişmə prinsipinin təsbit edilməsi mülki prosesdə insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasının və iş üzrə qəbul edilən qərarın ədalətli və qanuni olmasının təminatıdır. Çəkişmə prinsipinə görə, məhkəmə ədalət mühakiməsi funksiyaları ilə uyğun gəlməyən səlahiyyətlərdən azad olunmuşdur.

Yeni prosessual qanunvericilik işin faktiki hallarının müəyyən edilməsində və araşdırılmasında tərəflərin hüququna üstünlük vermişdir.

Belə ki, Mülki Prosessual Məcəllənin 14.2-ci maddəsinə əsasən, məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Lakin qanunverici məhkəmənin prosessual fəallıq prinsipindən tam imtina etməmişdir. Məsələ məhkəmənin həqiqəti nəyin bahasına olursa olsun, hətta tərəflərin istəyinin ziddinə üzə çıxarmaq vəzifəsindən deyil, bunu necə və hansı məqsədlə müəyyən etməsindən ibarətdir. Əgər məhkəmənin fəallığı çəkişmə prinsipindən kənara çıxmırsa, qarşısını almırsa, əksinə onun təmin edilməsində vasitəçilik edirsə, bu zaman belə fəallıq yolverilən, bəzi hallarda isə zəruri hesab edilməlidir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 372-ci maddəsinin apellyasiya baxışının hədləri barədə müddəalarının həmin Məcəllənin 372.1 və 372.7-ci maddələrinin tələbləri baxımından şərh edilməsinə dair" 2011-ci il 20 may tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki hüquqi mövqeyini inkişaf etdirərək, ilk növbədə qeyd etməyi lazım bilir ki, mülki məhkəmə icraatında Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinin "Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir" müddəası ədalət mühakiməsinin əsas prinsipləri və şərtlərini müəyyən edən Konstitusiyanın 127-ci maddəsinin II hissəsinin "Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar", həmin maddənin IV və VII hissələrinin "Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir. Məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir" və Konstitusiyanın 129-cu maddəsinin III hissəsinin "Məhkəmə qərarı qanuna və sübutlara əsaslanmalıdır" müddəaları ilə əlaqəli şəkildə tətbiq olunmalıdır.

Məhkəmə tərəfindən həqiqətin müəyyən edilməsi müddəası konstitusiya norması olmaqla ümumi xarakter daşıyır. Lakin həqiqətin müəyyən edilməsinin məqsəd və qaydası məhkəmə icraatının növündən asılı olaraq fərqlənir. Belə ki, məhkəmə prosesinin mülki, inzibati və ya cinayət işi üzrə olmasından asılı olaraq həqiqətin xarakteri də dəyişir.

Müraciətdə Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinin məhz mülki məhkəmə icraatına tətbiqi baxımından şərh edilməsi xahiş olunduğundan, qüvvədə olan mülki prosessual qanunvericiliyin bəzi müddəalarına diqqət yetirilməlidir.

Konstitusiyanın 127-ci maddəsinə əsaslanan Mülki Prosessual Məcəllənin 9.1 və 9.3-cü maddələrində qeyd edilmişdir ki, ədalət mühakiməsi çəkişmə, tərəflərin bərabərliyi və faktlar əsasında həyata keçirilir. Hakim bütün hallarda prosesin çəkişmə prinsipini təmin etməlidir. O, öz qərarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır. Məhkəmə, qərarını tərəfləri dəvət etmədən özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz.

Həmin Məcəllənin 14.1-ci maddəsi məhkəmədən həqiqətə nail olmaq üçün işin hərtərəfli, tam və obyektiv tədqiqinə lazımi şərait yaradılmasını tələb edir. Bunun üçün məhkəmə: işdə iştirak edən

şəxslərə onların prosessual hüquq və vəzifələrini izah edir, görüləcək, yaxud görülməyəcək hərəkətlərin nəticələri barədə onları xəbərdar edir, onların prosessual hüquqlarının həyata keçməsinə kömək göstərir.

Göründüyü kimi, mülki məhkəmə icraatında çəkişmə prinsipinin inkişafına baxmayaraq, məhkəmə çəkişmə prosesində iş üzrə həqiqətə nail olmaq üçün işin bütün hallarının hərtərəfli, tam və obyektiv müəyyənləşdirilməsinin təmin edilməsindən azad olunmayıb.

Burada söhbət hüquqi müstəvidə həqiqətə nail olunmasından gedir, müvafiq olaraq bu həqiqətin mahiyyəti də hüquqidir. Belə ki, proses zamanı həqiqətdə mövcud olan bütün hallar deyil, yalnız hüquqi əhəmiyyət daşıyan, yəni sübutetmə predmetinə aid olan hallar müəyyən edilir. Məhz bu səbəbdən hüquqi əhəmiyyət daşıyan hallar istənilən üsulla (məntiqi, elmi) deyil, sübutedici məlumatların, yəni sübutetmə vasitələrinin məhkəməyə təqdim olunmasının qanunla yol verilən üsulları ilə müəyyən edilməlidir. Belə həqiqəti şərti olaraq "hüquqi həqiqət" adlandırmaq olar.

Hüquqi həqiqət prinsipi, bir növ, əvvəllər mövcud olmuş obyektiv həqiqət prinsipi ilə anqlo-sakson hüquq sisteminə xas olan xalis çəkişmə əsasında qurulan formal həqiqət prinsipi arasında kompromisdir. Çünki iş üzrə ədalətli qərar qəbul etmək üçün məhkəmə tərəflərin çəkişməsini, sübutların araşdırılmasında real iştirakını təmin etməli və digər prosessual hüquqlarını həyata keçirmələrinə köməklik göstərməlidir. Ümumiyyətlə hüquqi həqiqət prinsipinin realizəsi mexanizmi bu cürdür: iş üzrə sübutetmə predmetinə daxil olan halların təqdim edilməsi yükü tərəflərin üzərinə düşür; məhz tərəflər bu halların mövcud olub-olmamasını sübut etməyə borcludurlar; prosesdə həqiqəti isə ədalət mühakiməsi orqanı olaraq məhkəmə müəyyən edir.

Nəticədə hüquqi həqiqət prinsipi mülki prosesdə tərəflər və məhkəmə arasında müəyyən iş bölgüsünə gətirib çıxarır: tərəflər işin faktiki hallarını təqdim edir, məhkəmə isə sübutları qiymətləndirir və sonda hüququ tətbiq edir. Belə iş bölgüsü Roma hüququnun "da mihi factum, dabo tibi ius" ("mənə faktları ver, mən sənə uyğun hüququ verəcəm") prinsipinə əsaslanır.

Mülki prosessual qanunvericilikdə də çəkişmə prinsipinin mövcudluğu hər bir tərəfə öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etmək vəzifəsini qoyur. Sübutetmə vəzifəsinin tərəflər arasında bölüşdürülməsinin ümumi qaydalarını Mülki Prosessual Məcəllənin 77.1-ci maddəsi müəyyən edir. Bu qaydalar onu ifadə edir ki, işdə iştirak edən hər bir şəxs istinad etdiyi halların mövcudluğunu və doğruluğunu yalnız özü sübut etməlidir və heç kəs, o cümlədən məhkəmə onu bu vəzifədən azad edə bilməz. İstisnanı yalnız Mülki Prosessual Məcəllənin 82 və 106.3-cü maddələrində göstərilən hallar təşkil edir.

Çəkişmə prinsipinin əsasını həmçinin tərəflərin prosessual hüquq bərabərliyi prinsipi təşkil edir. Bu prinsipə görə, tərəflər öz hüquq və mənafelərini müdafiə etmək üçün hüquqi cəhətdən tam bərabər imkana malik olmalıdırlar. Bu imkanlar qanunla və məhkəmə tərəfindən təmin edilir. Mülki prosessual qanunvericilik tərəflərə eyni hüquqlar verir. Buna görə də prosesdə tərəflərdən heç biri prosessual hüquqların həcminə görə digəri qarşısında üstünlüyə malik deyildir. Tərəflərin prosessual bərabərliyi prosesin çəkişmə prinsipi əsasında həyata keçirilməsinə şərait yaradır.

Mülki Prosessual Məcəllənin 14.1-ci maddəsində nəzərdə tutulmuş vəzifələr çərçivəsində işə baxan məhkəmə hansı halların iş üçün əhəmiyyət kəsb etdiyini, hansı tərəfin onları sübut etməli olduğunu və ya verilən tələbin təmin olunması üçün hansı halların sübut edilməli olduğunu tərəflərin istinad edib-etməməsindən asılı olmayaraq onlarla müzakirə etməlidir. Bu zaman hakimin tərəflərlə apardığı müzakirə, iddianın uğurluluğu perspektivi barədə izahlar verməsi və bununla bağlı işin məhkəmədən kənar həlli (barışıq yolu ilə) istiqamətində müzakirələr aparması hakimin baxılan məsələyə dair yekun qərar üzrə fikir bildirməsi kimi qiymətləndirilməməli və hakimə etiraz üçün əsas olmamalıdır.

Bununla yanaşı, mülki prosessual qanunvericilik işin məhkəmədə baxılmağa hazırlanması mərhələsində işin hərtə-

rəfli, tam və obyektiv tədqiqinə nail olmaq üçün məhkəmənin göstərməli olduğu fəallığın bir sıra mühüm şərtlərini və hədlərini müəyyənləşdirmişdir. Bu prosessual hərəkətlərə: işdə iştirak edən şəxslərin iştirakı ilə iddianın məhkəməyə çıxarılması məsələsini müzakirə etmək; cavabdeh tərəfin iştirakı ilə iddia tələbinin mahiyyəti barəsində iddiaçıdan izahat almaq, cavabdeh tərəfindən edilə biləcək etirazları araşdırmaq, zəruri olan hallarda əlavə sübutların təqdim edilməsini təklif etmək, prosessual hüquq və vəzifələrini ona izah etmək; cavabdehi çağırmaq, iddiaçının iştirakı ilə ondan işin halları barədə izahat almaq, iddiaya qarşı nə kimi etirazlar olduğunu və həmin etirazların hansı sübutlarla təsdiq edilə biləcəyini aydınlaşdırmaq, xüsusi ilə mürəkkəb işlər üzrə işə dair yazılı sübutları müəyyən olunmuş müddətdə və surəti iddiaçıya verilməklə təqdim etməyi cavabdehə təklif etmək, ona prosessual hüquq və vəzifələrini izah etmək kimi mühüm hərəkətlər aiddir (Mülki Prosessual Məcəllənin 167-ci maddəsi).

Eyni zamanda, çəkişmə və dispozitivlik prinsiplərinin üstünlüyündən irəli gələrək mülki prosessual qanunvericilik məhkəmənin heç bir halda öz təşəbbüsü ilə sübut toplamaq vəzifəsini nəzərdə tutmur, əksinə bunu məhkəməyə qadağan edir.

Belə ki, işdə olan sübutlar əsasında işə baxmaq mümkün olmadıqda, məhkəmə zəruri əlavə sübutlar təqdim etməyi tərəflərə təklif edə bilər (Mülki Prosessual Məcəllənin 77.3-cü maddəsi). Lakin işdə iştirak edən şəxsin işdə iştirak edən və iştirak etməyən şəxslərdən və ya orqanlardan onlarda olan zəruri sübutları müstəqil əldə etmək imkanı olmadıqda o, həmin sübutları tələb etmək barədə vəsatətlə məhkəməyə müraciət edə bilər (Mülki Prosessual Məcəllənin 78.2-ci maddəsi). Göründüyü kimi, məhkəmə iş üzrə sübutları yalnız tərəflərin vəsatəti əsasında və onlar həmin sübutları müstəqil qaydada əldə edə bilmədikdə tələb edə bilər. Bu zaman zəruri sübutu müstəqil qaydada əldə edə bilmədiyini sübut etmək yükü də müvafiq tərəfin üzərinə düşür. Əks yanaşma məhkəmənin tərəflərin prosessual səlahiyyətlərini öz üzərinə götürərək, onlardan hər hansı birinin tərəfində dayanması, yaxud onları əvəz etməsi görüntüsü yarada bilər. Halbuki məhkəmə (hakim) bütün proses boyu obyektiv və qərəzsiz arbitr olaraq qalmalıdır.

Yuxarıda qeyd edildiyi kimi, hüquqi həqiqət prinsipinə görə sübutların toplanması və təqdim edilməsi yükü bütünlüklə tərəflərin üzərinə düşür. Təqdim olunmuş sübutlar əsasında həqiqətin müəyyən edilməsi isə məhkəmə tərəfindən sübutların düzgün qiymətləndirilməsindən asılıdır.

Sübutların qiymətləndirilməsi faktların müəyyənləşdirilməsi imkanına dair məntiqi fəaliyyətdir və işdə olan sübutlar əsasında işin həll olunması deməkdir.

Sübutların qiymətləndirilməsi məhkəmə tərəfindən ilkin (məhkəmə araşdırmasının sonunda) və yekun (müşavirə otağında məhkəmə qətnaməsi qəbul edilərkən) qiymətləndirməni nəzərdə tutur. İlkin qiymətləndirmə ayrı-ayrı faktların müəyyən edilməsi üçün hər bir sübutun aid edilməsi, mümkünlüyü, mötəbərliyi və yetərliliyi nöqteyi-nəzərindən onun predmetinin keyfiyyətinə dair keçirilir.

Sübutetmənin son mərhələsi məhkəmə tərəfindən bütün sübutların yoxlanılması əsasında verilən yekun hüquqi qiymətdir. İş üzrə qərarın əsasında yalnız obyektiv, qərəzsiz, hərtərəfli və tam yoxlanılmış sübutlar dayana bilər. Sübutların bu cür qiymətləndirilməsi məhkəmə iclasında sübutetmə predmetinə daxil olan tərəflərin bildirdiyi bütün faktların hərtərəfli, tam və qərəzsiz tədqiqi əsasında və yalnız qanuna əsaslanaraq hakim tərəfindən həyata keçirilir. Hər bir sübut aidiyyət, mümkünlük, mötəbərlik nöqteyi-nəzərindən, bütün sübutların məcmusu isə iş üzrə sübut edilməli olan faktların yetərliliyi baxımından qiymətləndirilir. Heç bir sübut məhkəmə üçün əvvəlcədən müəyyən edilmiş qüvvəyə malik deyil.

Qeyd edilməlidir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi məhkəmələr tərəfindən ədalətli məhkəmə araşdırılması hüququ ilə bağlı irəli sürülən tələblərə əməl edilməməsini həmin hüququn pozulması kimi qəbul edərək bir sıra qərarlarında bununla bağlı hüquqi mövqelərini ifadə etmişdir.

Belə ki, Avropa Məhkəməsi Van de Huk Niderlanda qarşı iş üzrə 1994-cü il 19 aprel tarixli Qərarında sübutların

qiymətləndirilməsi və onların aidiyyəti və mümkünlüyü məsələsinin həllində milli məhkəmələrin səlahiyyətini nəzərə alaraq göstərmişdir ki, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi ədalət mühakiməsi orqanının üzərinə tərəflərin təqdim etdiyi mülahizələri, dəlilləri və sübutları hərtərəfli araşdırmaq vəzifəsini qoyur.

Konstitusiya Məhkəməsinin Plenumu da əvvəlki qərarlarında dəfələrlə qeyd etmişdir ki, hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir. Məhkəmə işin gedişində təqdim olunmuş ancaq o sübutları qəbul edir və nəzərə alır ki, onlar işdə tərəflərin tələblərini müəyyən edən faktlarla və hallarla əlaqədardır. Qətnamə iş üzrə müəyyən edilmiş həqiqi hallara və tərəflərin qarşılıqlı münasibətinə uyğun əsaslandırılmalıdır. Qətnamə çıxarıldıqda hakim sübutları qiymətləndirir, iş üçün əhəmiyyətli olan nə kimi halların müəyyən edildiyini, nə kimi halların müəyyən edilmədiyini, tərəflərin hansı hüquqi münasibətdə olmalarını, həmin iş üzrə hansı qanunun tətbiq edilməli olduğunu və iddianın təmin olunub-olunmadığını müəyyən edir ("Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair" 2016-cı il 23 fevral tarixli Qərar).

Yuxarıda göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, mülki məhkəmə icraatında Konstitusiyanın 125-ci maddəsinin VII hissəsinin "Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir" müddəası Konstitusiyanın 127-ci maddəsinin II, IV və VII hissələrində, 129-cu maddəsinin III hissəsində təsbit olunmuş ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi, faktlar əsasında və qanuna müvafiq keçirilməsi, məhkəmə qərarının qanuna və sübutlara əsaslanmasına dair ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ilə əlaqəli şəkildə tətbiq olunmalıdır.

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı zamanı məhkəmələr ədalət mühakiməsini çəkişmə və tərəflərin bərabərliyi prinsipinə riayət etməklə, tərəflərin təqdim etdiyi sübutlar və faktlar əsasında həyata keçirməli, öz qərarlarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, təqdim etdikləri və Mülki Prosessual Məcəllənin tələblərinə müvafiq olaraq əldə edilmiş sübutlarla əsaslandırmalı, həmin sübutların araşdırılmasından irəli gələn həqiqəti müəyyən etməlidir.

Kassasiya instansiyası məhkəməsinin apellyasiya instansiyası məhkəməsinin qətnaməsini ləğv edərək qərarda işə yenidən baxılarkən əsl həqiqətin müəyyən edilməsi üçün qanunda nəzərdə tutulmuş tədbirlərin görülməsinə dair göstərişinə gəldikdə isə Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Konstitusiya Məhkəməsinin Plenumu 2009-cu ilədək qəbul etdiyi iki qərarda "obyektiv həqiqət" sözlərindən istifadə etsə də, Konstitusiyanın 125-ci maddəsinə edilmiş əlavədən sonra həqiqət prinsipinə məhz dispozitivlik və tərəflərin çəkişmə prinsipləri ilə əlaqəli şəkildə baxmışdır.

Bununla bağlı olaraq Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib bilir ki, Konstitusiyada təsbit olunmuş tərəflərin çəkişməsi prinsipi və əsl (obyektiv) həqiqət bir araya sığmayan məfhumlardır.

Həmçinin hüquqi mənada həqiqət prinsipinin adresatı kimi yalnız birinci və apellyasiya instansiyası məhkəmələri çıxış edirlər. Məhz bu məhkəmələr işin faktiki hallarını müəyyən etmək səlahiyyətinə malikdir.

Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında formalaşdırılmış hüquqi mövqeyə görə, kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən yalnız maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

Kassasiya məhkəməsi öz mülahizəsi ilə hansı halların hansı sübutetmə vasitələri ilə təsdiq və ya inkar edilməsi, işə yenidən baxılarkən hansı sübutların toplanılması və araşdırılması, habelə işə yenidən baxan məhkəmənin hansı nəticəyə gəlməli olması haqqında göstəriş verə bilməz. Belə göstərişlərin verilməsi hakimlərin müstəqilliyinə dair konstitusiya prinsipi ilə ziddiyyət təşkil etmiş olar.

Kassasiya məhkəməsi belə göstərişlər verdiyi halda, apellyasiya məhkəməsi qanunvericiliyin müvafiq tələblərinə uyğun olaraq, habelə Konstitusiyanın hakimlərin müstəqil, yalnız Konstitusiyaya və qanunlara tabe olduqlarını nəzərdə tutan 127-ci maddəsinin I hissəsini rəhbər tutaraq, işi öz səlahiyyətləri çərçivəsində həll etməlidir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 420-ci maddəsinin şərh edilməsinə dair" 2012-ci il 28 fevral tarixli Qərarı).

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Mülki məhkəmə icraatında Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin "Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir" müddəası Konstitusiyanın 127-ci maddəsinin II, IV və VII hissələrində, 129-cu maddəsinin III hissəsində təsbit olunmuş ədalət mühakiməsinin çəkişmə, tərəflərin bərabərliyi, faktlar əsasında və qanuna müvafiq keçirilməsi, məhkəmə qərarının qanuna və sübutlara əsaslanmasına dair ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri ilə əlaqəli şəkildə tətbiq olunmalıdır.

Mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatı zamanı məhkəmələr ədalət mühakiməsini çəkişmə və tərəflərin bərabərliyi prinsipinə riayət etməklə, tərəflərin təqdim etdiyi sübutlar və faktlar əsasında həyata keçirməli, öz qərarlarını yalnız tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, təqdim etdikləri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin tələblərinə müvafiq olaraq əldə edilmiş sübutlarla əsaslandırmalı, həmin sübutların araşdırılmasından irəli gələn həqiqəti müəyyən etməlidir.

2. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr**
**Fərhad Abdullayev**
*Bakı şəhəri, 18 mart 2019-cu il*

## Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1, 92.10.3 və 244.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat idarəsinin rəis müavini Aynur Osmanova və Azərbaycan Respublikası Milli Məclisi Aparatının sektor

müdiri Eldar Əsgərovun, ekspert Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasının professoru, hüquq elmləri doktoru Midhəd Qəfərovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Hafiz Nəsibov, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş istintaq və təhqiqat idarəsinin Nəzarət metodiki idarəsinin rəisi Emil Məmmədov və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü Fərid Həsənovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1, 92.10.3 və 244.2-ci maddələrinin şərh edilməsinə dair Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim S.Həsənovanın məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra - Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) özbaşına müdafiədən və müdafiə etdiyi şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirakdan müdafiəçinin imtinasına dair qadağanı nəzərdə tutan 92.10.1 və 92.10.3-cü maddələrinin, habelə şübhəli və ya təqsirləndirilən şəxs barəsində axtarış və götürmənin aparılmasında müdafiəçinin vəzifəsini deyil, hüququnu nəzərdə tutan 244.2-ci maddəsinin şərh edilməsini xahiş etmişdir.

Sorğu onunla əsaslandırılmışdır ki, Cinayət-Prosessual Məcəlləsinin 92.10.1 və 92.10.3-cü maddələri müdafiəçiyə şübhəli və ya təqsirləndirilən şəxs barəsində aparılan prosessual hərəkətlərdə iştirakdan imtinanı qadağan edərək belə iştirakı onun üzərinə bir vəzifə kimi qoyduğu halda, həmin Məcəllənin 244.2-ci maddəsində müdafiəçinin axtarış və götürmə istintaq hərəkətlərinin aparılmasında iştirakı onun hüququ kimi nəzərdə tutulmuşdur. Belə olan halda Cinayət-Prosessual Məcəlləsinin 92.10.1 və 92.10.3-cü maddələri ilə həmin Məcəllənin 244.2-ci maddəsi arasında uyğunsuzluq yaranır. Belə ki, bir sıra hallarda müdafiəçi istintaq hərəkətinin qanuna uyğun aparılmamasının müdafiə etdiyi şəxsin qanuni mənafelərinə zidd olması və istintaq hərəkətində iştirakın onun vəzifəsi deyil, hüququ olmasına əsaslanaraq belə iştirakdan imtina edir.

Müdafiəçinin istintaq hərəkətində iştirakdan imtina etməsi Prokurorluq tərəfindən Cinayət-Prosessual Məcəlləsinin 90.7.2, 90.7.9, 92.3.9, 92.10.1 və 92.10.3-cü maddələrinin tələblərinin pozulması kimi qiymətləndirilir. Sorğuverən hesab edir ki, hüquqtətbiqetmə təcrübəsində yaranan ziddiyyətlərin aradan qaldırılması məqsədi ilə cinayət-prosessual qanunvericiliyinin müdafiəçinin müdafiə etdiyi şəxsin mənafeyinə zidd olaraq prosessual hərəkətlərdə iştirakdan imtina etməsini qadağan edən normalarına, eləcə də axtarış və ya götürmə istintaq hərəkətlərində müdafiəçinin iştirakını tənzimləyən normalarına aydınlıq gətirilməsi məqsədəmüvafiq olardı.

Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə qeyd etməyi zəruri hesab edir ki, sorğuda göstərilmiş işin bəzi halları Cinayət-Prosessual Məcəlləsinin 246-cı maddəsində nəzərdə tutulmuş şəxsi axtarış və götürmə istintaq hərəkətində müdafiəçinin iştirakı ilə bağlı olsa da, hazırkı konstitusiya işinin predmetini həmin Məcəllənin 92.10.1, 92.10.3 və 244.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsi təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 26-cı

maddəsinin I və II hissələrinə görə, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

Konstitusiyanın 61-ci maddəsinə əsasən, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir. Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra - Konvensiya) 6-cı maddəsinin 3-cü hissəsinə görə, cinayət törətməkdə ittiham olunan hər kəs, şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək hüququna malikdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Artico İtaliyaya qarşı iş üzrə Qərarında göstərmişdir ki, Konvensiyanın 6-cı maddəsinin "ç" bəndində vəkilin təyin edilməsindən deyil, onun yardımından istifadə edilməsindən bəhs olunur. Vəkilin sadəcə təyin edilməsi səmərəli hüquqi yardımı təmin etmir. Çünki hüquqi yardım məqsədi ilə təyin edilən vəkil vəfat edə, ciddi xəstəliyə tutula, uzun müddət vəzifəsini icra etmə imkanına malik olmaya və ya bundan boyun qaçıra bilər. Belə halda dövlət orqanları bu barədə xəbərdar olduqda vəkili əvəz etməli və ya öz vəzifəsini icra etməyə məcbur etməlidirlər.

Konstitusiya Məhkəməsi Plenumunun hüquqi yardım almaq hüququ ilə bağlı formalaşdırdığı hüquqi mövqeyə görə, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun ictimai əhəmiyyəti ondan ibarətdir ki, bu hüquq öz mahiyyətinə görə insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təminatıdır. Bu hüququn funksiyalarından biri olan preventiv funksiya nəinki şəxsin öz hüquq və azadlıqlarını qanuna uyğun həyata keçirməsinə kömək edir, həmçinin dövlət hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin insan və vətəndaş hüquq və azadlıqlarının qeyri-qanuni məhdudlaşdırılmasına yönəlmiş hərəkətlərinin qarşısının alınmasına zəmanət verir.

Hər bir şəxsin müdafiəçinin köməyindən istifadə etmək hüququ yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun növü olaraq Konstitusiyada təsbit olunmuş digər hüquqlarla qarşılıqlı əlaqədədir (qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını müdafiə etmək hüququ, azadlıq hüququ, məhkəmə müdafiəsi hüququ) və onların həyata keçirilməsini təmin edir. Bunun davamı olaraq ədalət mühakiməsinin əsas ünsürlərindən biri kimi, müdafiəçinin köməyindən istifadə etmək hüququnun başlıca məqsədi şübhəli və ya təqsirləndirilən şəxsi müdafiəçi ilə təmin etməklə cinayət prosesində tərəflərin real (həqiqi) bərabərliyinə zəmanət verməkdir ("Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.12-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2011-ci il 20 may tarixli Qərar).

Müdafiə hüququ şəxsin qanuni maraqlarının təminatı ilə yanaşı, həm də ədalət mühakiməsi maraqlarının təminatıdır, sosial dəyərdir. Hər kəsin hüquqi yardım almaq hüququnun təmin edilməsi ilə bağlı yaranan hüquq münasibətləri özündə ictimai maraqları əks etdirdiyi üçün dövlətin bu sahədə üzərinə düşən konstitusiya öhdəliklərinin yerinə yetirilməsinə dəlalət edir. Bu isə dövlət tərəfindən zərurət olduqda şəxsin hüquqlarının müdafiəsi üçün pozitiv tədbirlərin görülməsini tələb edir.

Bu mənada təqsirləndirilən şəxsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun təmin edilməsinin zəruriliyi işin hallarının tam, obyektiv və hərtərəfli araşdı-

rılmasına xidmət edir və nəticədə ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə yönəlmişdir. Belə ki, yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ şəxsin hüquq və azadlıqlarının, həmçinin qanuni mənafelərinin müdafiəsinin təmin edilməsi ilə yanaşı, ədalət mühakiməsinin tərəflərin bərabərliyi və çəkişmə prinsipləri əsasında həyata keçirilməsinin başlanğıc şərti kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının ərazisində hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarının təmin olunması və başqa məsələlər üzrə hüquqi yardım göstərən vəkillərin fəaliyyətinin tənzimlənməsi məqsədi ilə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra - "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun) qəbul edilmişdir.

Həmin Qanunun 3-cü maddəsinə əsasən, fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsi və onlara yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi vəkilliyin əsas vəzifəsidir.

Cinayət-prosessual qanunvericiliyinə görə, hər bir tutulmuş və ya həbsə alınmış şəxsə dərhal tutulmanın, yaxud həbsə almanın səbəbləri, habelə şübhənin və ya ittihamın mahiyyəti, ifadə verməmək və müdafiəçi tərəfindən hüquqi yardım almaq hüquqları ona aydın olan dildə bildirilməlidir. Cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnu təmin etmək üçün tədbirlər görməlidir. Cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada tutulduğu, həbsə alındığı və ya müvafiq olaraq şübhəli şəxs qismində birinci dindirməyədək, yaxud təqsirləndirilən şəxsə ittiham elan edildiyi andan müdafiəçinin yardımından istifadə etmək, şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunmaq, yaxud müdafiəçinin haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, pulsuz hüquqi yardım almaq hüquqlarını təmin etməlidir (Cinayət-Prosessual Məcəlləsinin 14.4, 19.1 və 19.4-cü maddələri).

Göründüyü kimi, şübhəli və ya təqsirləndirilən şəxsin qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada keyfiyyətli hüquqi yardım almaq və müdafiə hüquqlarının təmin edilməsi cinayət prosesini həyata keçirən orqanın əsas vəzifələrindən biri kimi müəyyən edilmişdir.

Cinayət prosesində müdafiəçinin iştirakının təmin edilməli olduğu hallar, onun hüquqları, vəzifələri, müdafiəçiyə qadağan olunan hərəkətlər və s. Cinayət-Prosessual Məcəlləsinin 92-ci maddəsi ilə tənzimlənir.

Cinayət prosesində müdafiəçinin iştirakının təmin edilməli olduğu hallar Məcəllənin 92.3-cü maddəsində nəzərdə tutulmuşdur. Bu maddəyə əsasən, şübhəli və ya təqsirləndirilən şəxs tələb etdikdə, şübhəli və ya təqsirləndirilən şəxs lal, kor, kar olduğuna, danışmaq, eşitmək, görmək funksiyalarında digər ciddi qüsurlar olduğuna, uzun sürən ağır xəstəliyinə, habelə kəmağıllığa, aşkar əqli zəifliyə və ya digər qüsurlara görə müdafiə hüququnu müstəqil həyata keçirə bilmədikdə, şübhəli və ya təqsirləndirilən şəxs cinayəti törədərkən yetkinlik yaşına çatmadıqda, təqsirləndirilən şəxs müddətli hərbi xidmət qulluqçusu olduqda, şübhəli və ya təqsirləndirilən şəxsə xüsusilə ağır cinayət törətməsi istinad edildikdə, şübhəli və ya təqsirləndirilən şəxs tutulduqda və ya təqsirləndirilən şəxs haqqında qətimkan tədbiri qismində həbs tətbiq edildikdə (bu Məcəllənin 153.2.8-ci maddəsində nəzərdə tutulmuş hal istisna edilməklə), təqsirləndirilən şəxslərin qanuni mənafeləri arasında ziddiyyət mövcuddursa və onlardan birinin müdafiəçisi olduqda və s.

hallarda cinayət prosesində müdafiəçinin iştirakı təmin olunmalıdır.

Beləliklə, qanunverici Cinayət-Prosessual Məcəlləsinin 92.3-cü maddəsində xüsusi hallar müəyyən edərək müdafiəçinin cinayət prosesində iştirak etməsinin vacibliyini nəzərə almış və onun iştirakı olmadan cinayət prosesinin həyata keçirilməsini qadağan etmişdir. Həmin hallar mövcud olduqda, cinayət təqibini həyata keçirən orqan və ya məhkəmə müdafiəçinin mütləq iştirakını təmin etdikdən sonra istintaq və ya digər prosessual hərəkətləri həyata keçirə bilər. Eyni zamanda, qanunverici şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçidən imtina etməsinin mümkünlüyünü də nəzərdə tutmuşdur. Lakin Cinayət-Prosessual Məcəlləsinin 92.12-ci maddəsinə uyğun olaraq, həmin Məcəllənin 92.3-cü maddəsində göstərilmiş bəzi hallarda şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçidən imtina etməsi qəbul olunmur. Müdafiəçinin cinayət prosesində mütləq iştirakının təmin olunmaması cinayət-prosessual qanunvericiliyinin pozulması kimi qiymətləndirilə və müvafiq prosessual hərəkətin və onun nəticələrinin qanunsuz hesab edilməsinə səbəb ola bilər.

Müdafiəçinin cinayət təqibi üzrə müdafiə funksiyasını lazımınca yerinə yetirməsini təmin etmək məqsədi ilə Cinayət-Prosessual Məcəlləsinin 92.9-cu maddəsində onun bir sıra prosessual hüquqları nəzərdə tutulmuşdur. Müdafiəçi cinayət prosesini həyata keçirən orqanın təklifi ilə bu orqanın apardığı istintaq və ya digər prosessual hərəkətlərdə, habelə müdafiə etdiyi şəxsin iştirakı ilə keçirilən hər hansı istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etmək; şübhəli və ya təqsirləndirilən şəxsə hüquqlarını yadına salmaq, istintaq və ya digər prosessual hərəkəti aparan şəxsin nəzərini onun yol verdiyi qanun pozuntularına cəlb etmək; cinayət prosesini həyata keçirən orqanın hərəkətlərinə öz etirazını bildirmək və bu etirazın istintaq və ya digər prosessual hərəkət protokolunda qeyd edilməsini tələb etmək; özünün və ya müdafiə etdiyi şəxsin iştirakı ilə keçirilmiş istintaq və ya digər prosessual hərəkətlərin, habelə məhkəmə iclasının protokolları ilə tanış olmaq; iştirak etdiyi istintaq və ya digər prosessual hərəkətlərin protokollarındakı yazıların düzgünlüyü və tamlığı barədə qeydlər vermək; istintaq və ya digər prosessual hərəkətlərdə və məhkəmə baxışında iştirak edərkən zəruri olan halların müvafiq protokola daxil edilməsini tələb etmək və s. hüquqları həyata keçirir.

Bununla yanaşı, vəkilin peşə fəaliyyətinin prinsip və qaydalarına, habelə cinayət təqibi üzrə icraatın qaydalarına riayət edilməsinin təmin olunması üçün Cinayət-Prosessual Məcəlləsinin 92.11-ci maddəsində müdafiəçinin vəzifələri təsbit edilmişdir. Həmin maddəyə görə, müdafiəçi cinayət prosesində iştirak edərkən qanunun tələblərini rəhbər tutmaq; şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyinin müdafiəsini bütün qanuni üsullarla həyata keçirmək; onun vəziyyətində işin mümkün dərəcədə xeyrinə başa çatdırılması üçün müdafiə etdiyi şəxsə zəruri hüquqi məsləhətlər vermək və müdafiə tərəfin seçdiyi mövqe üzrə hərəkət etmək; cinayət mühakimə icraatı zamanı vəkil etikasına riayət etmək; şübhəli və ya təqsirləndirilən şəxsə hüquqi yardım göstərilməsi üçün cinayət prosesini həyata keçirən orqanın çağırışı ilə gəlmək və s. vəzifələri yerinə yetirməlidir.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun 16-cı maddəsinə əsasən isə peşə fəaliyyətini həyata keçirərkən vəkil qanunun tələblərini icra etməli, müdafiə edilən və ya hüquqları təmsil edilən şəxsin mənafelərini qorumaq üçün qanunvericiliklə nəzərdə tutulmuş bütün üsullardan istifadə etməli; vəkil sirrini qorumalı, vəkil andına və vəkil etikasına riayət etməli; yalnız qanunun tələblərini rəhbər tutmalıdır.

Konstitusiyanın 61-ci maddəsində nəzərdə tutulmuş keyfiyyətli hüquqi yardım almaq hüququnun təmin edilməsi üçün Cinayət-Prosessual Məcəlləsinin 92.10-cu maddəsi ilə müdafiəçiyə müəyyən hərəkətləri etmək qadağan edil-

mişdir. Belə ki, həmin Məcəllənin 92.10.1 və 92.10.3-cü maddələrinə görə, müdafiəçiyə müdafiə etdiyi şəxsin qanuni mənafeyinə zidd olaraq hər hansı hərəkəti etmək, o cümlədən onun törədilmiş cinayətlə əlaqəsini və təqsirini təsdiq etmək, ona qarşı qaldırılmış mülki iddianı qəbul etmək, onun iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirakdan imtina etmək və onun hüquqlarının həyata keçirilməsinə mane olmaq, özbaşına müdafiədən imtina etmək və ya müdafiəçi qismində səlahiyyətlərinə xitam vermək qadağan olunur.

Cinayət-Prosessual Məcəlləsinin qeyd olunan maddələri ilə müdafiəçiyə müəyyən hərəkətlərin qadağan edilməsi bu Məcəllənin 92.11-ci və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun 16-cı maddələrində nəzərdə tutulan vəkilin keyfiyyətli hüquqi yardımın göstərilməsi ilə bağlı vəzifələrinin lazımınca həyata keçirilməsinə, eləcə də müdafiə etdiyi şəxsin qanuni mənafelərinin qorunmasına xidmət edir. Bu özünü əsasən müdafiəçiyə şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirakdan, habelə özbaşına müdafiədən imtina etmənin qadağan olunmasında büruzə verir.

Cinayət-Prosessual Məcəlləsinin 92.10.1-ci maddəsinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, müdafiəçinin müdafiə etdiyi şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirak etməsi qanunvericiliyin tələbidir və ona belə hərəkətlərin aparılmasında iştirakdan imtina etmək müdafiə etdiyi şəxsin qanuni mənafeyini qorumaq məqsədi ilə qadağan olunmuşdur. Belə imtina müdafiə olunan şəxsin qanuni mənafeyinə və cinayət-prosessual qanunvericiliyinin tələblərinə zidd olmaqla, müdafiəçinin qanunvericiliklə üzərinə qoyulmuş vəzifələrini lazımınca yerinə yetirməməsi kimi qiymətləndirilə bilər.

Bununla bağlı vurğulanmalıdır ki, şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyinin qorunması üçün müdafiəçi müdafiə etdiyi şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə iştirak etməklə öz prosessual vəzifələrini yerinə yetirir. Cinayət prosesində müdafiəçinin qanunvericiliklə nəzərdə tutulmuş prosessual hüquqlarının və vəzifələrinin həyata keçirilməsinin təmin edilməsi son nəticədə ədalət mühakiməsinin həyata keçirilməsinə mühüm töhfə kimi çıxış edir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin "özbaşına müdafiədən imtina etmək" müddəası müdafiəçinin müdafiədən tam imtina etməsi ilə yanaşı, müdafiə prosesinin ayrı-ayrı mərhələlərindən, eləcə də üzrsüz səbəbdən hər hansı prosessual hərəkətlərdə iştirak etməkdən imtina etməsini də ehtiva edir.

Beləliklə, qanunverici şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı ilə aparılan prosessual hərəkətlərdə müdafiəçinin iştirakını müdafiəçinin və ya müdafiə etdiyi şəxsin mülahizəsindən asılı etməmişdir.

Müdafiəçinin müdafiə etdiyi şəxsin iştirakı olmadan aparılan prosessual hərəkətlərdə iştirakı isə müdafiə etdiyi şəxsin mənafeyi nəzərə alınaraq müdafiəni səmərəli təşkil emək məqsədilə onunla razılaşdırılmaqla həyata keçirilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda şərh olunması xahiş edilən Cinayət-Prosessual Məcəlləsinin 244.2-ci maddəsində nəzərdə tutulmuş axtarış və götürmə istintaq hərəkətində müdafiəçinin iştirak etmək hüququna dair aşağıdakıları qeyd edir.

Müdafiəçi tərəfindən Cinayət-Prosessual Məcəlləsinin 92.9-cu maddəsində sadalanmış prosessual hüquqların həyata keçirilməsinin müfəssəl qaydası həmin Məcəllənin xüsusi normalarında təsbit olunmuşdur. Belə maddələrdən biri olan Cinayət-Prosessual Məcəlləsinin 244.2-ci maddəsinə əsasən, şübhəli və ya təqsirləndirilən şəxs barəsində axtarış və götürmənin aparılmasında onun müdafiəçisi iştirak etmək hüququna malikdir. Həmin istintaq hərəkətinin aparılması barədə müstəntiq tərəfindən əvvəlcədən xəbərdar edilmiş müdafiə-

çi axtarış və götürmədə iştirak etmək arzusunu bildirdikdə müstəntiq onun bu hüququnu təmin etməlidir.

Qeyd olunmalıdır ki, Məcəllənin 244.2-ci maddəsi ilə müəyyən edilmiş axtarış və götürmənin aparılmasında müdafiəçinin iştirak etmək hüququ müdafiə etdiyi şəxsin qanuni mənafeyini qorumaq məqsədi ilə onun cinayət-prosessual funksiyalarını həyata keçirməsinin təmin edilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş imkanı ehtiva edir. Bu baxımdan qanunverici müstəntiqin üzərinə belə istintaq hərəkətinin aparılması barədə müdafiəçini əvvəlcədən xəbərdar etmək, müdafiəçi axtarış və götürmədə iştirak etmək arzusunu bildirdikdə isə onun bu hüququnu təmin etmək vəzifəsini qoymuşdur.

Axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin həm iştirakı ilə, həm də iştirakı olmadan aparılan prosessual hərəkətlərə aiddir. Belə olan halda həmin istintaq hərəkətlərində şübhəli və ya təqsirləndirilən şəxsin iştirak edib-etməməsindən asılı olaraq, müdafiəçinin iştirakı məsələsi Cinayət-Prosessual Məcəlləsinin 92.9.3, 92.10.1 və 92.10.3-cü maddələrinin tələbləri nəzərə alınmaqla həll edilməlidir. Belə ki, həmin istintaq hərəkəti təqsirləndirilən şəxsin iştirakı ilə aparıldıqda Cinayət-Prosessual Məcəlləsinin imperativ norması olan 92.10.1-ci maddəsinə uyğun olaraq, müdafiəçiyə müdafiə etdiyi şəxsin qanuni mənafeyinə zidd olaraq bu prosessual hərəkətdə iştirakdan imtina etmək qadağan olunur. Belə istintaq hərəkəti şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı olmadan aparıldıqda isə o, müdafiəçinin həmin istintaq hərəkətində iştirak etməsini tələb edərsə, Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinə müvafiq olaraq müdafiəçi belə iştirakdan imtina edə bilməz. Belə ki, müdafiəçinin cinayət prosesində iştirakı, bir qayda olaraq, şübhəli və ya təqsirləndirilən şəxsin iradəsindən asılı olduğundan, o, bu hüququ öz mülahizəsi əsasında müstəqil deyil, müdafiəni səmərəli təşkil etmək məqsədilə müdafiə etdiyi şəxslə razılaşdırmaqla həyata keçirməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, istintaq və ya digər prosessual hərəkətlərdə müdafiəçinin mütləq iştirak etməli olduğu hallar mövcud olmadıqda, eləcə də şübhəli və ya təqsirləndirən şəxs bunu tələb etmədikdə cinayət prosesini həyata keçirən orqan tərəfindən müdafiəçinin belə hərəkətlərin aparılmasında iştirakının tələb edilməsi yolverilməzdir.

Bununla yanaşı qeyd olunmalıdır ki, axtarış və ya götürmə istintaq hərəkətlərinin təxirə salınmadan aparılmasının zəruriliyi nəzərə alınaraq bu istintaq hərəkətlərinin müdafiəçinin iştirakı olmadan həyata keçirilməsi istisna edilməmişdir. Bu halda müstəntiq axtarış və ya götürmənin aparılması barədə əsaslandırılmış qərar çıxarmalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2015-ci il 12 fevral tarixli Qərarı).

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Cinayət-Prosessual Məcəlləsinin 92.10.1 və 92.10.3-cü maddələri ilə həmin Məcəllənin 244.2-ci maddəsi arasında hər hansı ziddiyyət mövcud deyildir;
- Cinayət-Prosessual Məcəlləsinin 244.2-ci maddəsində göstərilmiş axtarış və götürmənin aparılmasında müdafiəçinin iştirak etmək hüququ onun şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyini qorumaq məqsədi ilə cinayət-prosessual funksiyalarını həyata keçirməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş imkanı ehtiva edir;
- Konstitusiyanın 61-ci maddəsi baxımından və Cinayət-Prosessual Məcəlləsinin 92.10.1-ci maddəsinin tələblərinə müvafiq olaraq, həmin Məcəllənin 244-cü maddəsində nəzərdə tutulmuş axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı ilə aparıldıqda, müdafiəçi müdafiə etdi-

yi şəxsin qanuni mənafeyini qorumaq məqsədi ilə həmin prosessual hərəkətlərdə iştirakdan imtina edə bilməz;

- Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin "özbaşına müdafiədən imtina etmək" müddəası müdafiəçinin müdafiədən tamamilə imtina etməsi ilə yanaşı, müdafiə prosesinin ayrı-ayrı mərhələlərindən, eləcə də üzrsüz səbəbdən hər hansı prosessual hərəkətlərdə iştirak etməkdən imtina etməsini də ehtiva edir.

Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin tələbləri baxımından, həmin

Məcəllənin 244-cü maddəsində nəzərdə tutulmuş axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı olmadan aparıldıqda, müdafiəçi müdafiə etdiyi şəxsin razılığı olmadan həmin istintaq hərəkətlərində iştirakdan imtina edə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1 və 92.10.3-cü maddələri ilə həmin Məcəllənin 244.2-ci maddəsi arasında hər hansı ziddiyyət mövcud deyildir.

2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 244.2-ci maddəsində göstərilmiş axtarış və götürmənin aparılmasında müdafiəçinin iştirak etmək hüququ onun şübhəli və ya təqsirləndirilən şəxsin qanuni mənafeyini qorumaq məqsədi ilə cinayət-prosessual funksiyalarını həyata keçirməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş imkanı ehtiva edir.

3. Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsi baxımından və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.1-ci maddəsinin tələblərinə müvafiq olaraq, həmin Məcəllənin 244-cü maddəsində nəzərdə tutulmuş axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı ilə aparıldıqda, müdafiəçi müdafiə etdiyi şəxsin qanuni mənafeyini qorumaq məqsədi ilə həmin prosessual hərəkətlərdə iştirakdan imtina edə bilməz.

4. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin "özbaşına müdafiədən imtina etmək" müddəası müdafiəçinin müdafiədən tamamilə imtina etməsi ilə yanaşı, müdafiə prosesinin ayrı-ayrı mərhələlərindən, eləcə də üzrsüz səbəbdən hər hansı prosessual hərəkətlərdə iştirak etməkdən imtina etməsini də ehtiva edir.

Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsinin tələbləri baxımından, həmin Məcəllənin 244-cü maddəsində nəzərdə tutulmuş axtarış və ya götürmə istintaq hərəkətləri şübhəli və ya təqsirləndirilən şəxsin iştirakı olmadan aparıldıqda, müdafiəçi müdafiə etdiyi şəxsin razılığı olmadan həmin prosessual hərəkətlərdə iştirakdan imtina edə bilməz.

5. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

6. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

7. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 28 mart 2019-cu il*